Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 225 (7952) BAZAR, 7 oktyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Azərbaycanın 170 ölkə ilə ticarət əlaqəsi var

Bu günə olan məlumata görə, Azərbaycanda fəaliyyət göstərən hüquqi və fiziki şəxslər dünyanın 170 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları aparırlar. Onlar 101 ölkəyə məhsul ixrac edirlər. Azərbaycanın məhsul idxal etdiyi ölkələrin sayı isə 162-dir.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla cari ilin yanvar-iyul aylarında Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 17,4 milyard dollarlıqdan çox olmuşdur. Həmin məbləğin 11,6 milyard dollarlığından artığı ixracın, 5,7 milyard dollarlığından çoxu idxalın payına düşmüşdür ki, bu da təxminən 5,9 milyard dollarlıq müsbət ticarət saldosu deməkdir.

Ötən ilin müvafiq dövrünə nisbətən bu ilin 7 ayında xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 35,6, real ifadədə 0,7, o cümlədən ixrac 0,8, idxal 0,5 faiz artmışdır. Hesabat dövründə faktiki qiymətlərlə ölkədən 37,3 faiz çox məhsul ixrac olunmuşdur. Həmçinin idxal edilmiş məhsulların dəyərində də artım (32,2 faiz) müşahidə edilmişdir.

Dövlət Gömrük Komitəsindən daxil olan məlumatlara görə, xarici ticarət əməliyyatlarının 85 faizi İtaliya, Türkiyə, Rusiya, İsrail, Almaniya, Hindistan, Çin, ABŞ, Çinin əyaləti olan Tayvan, İndoneziya, Kanada, Çexiya, Fransa, Portuqaliya, Gürcüstan, Ukrayna, Birləşmiş Krallıq, İspaniya və İsveçrə ilə aparılmışdır.

Ölkəmizə idxal olunmuş məhsulların 15,9 faizi Rusiya, 15,3 faizi Türkiyə, 10,2 faizi Çin, 6,7 faizi Almaniya, 4,9 faizi ABŞ, 4,1 faizi Ukrayna, 3,3 faizi İtaliya, 2,7 faizi İran, hər biri 2,5 faiz olmaqla İsveçrə və Yaponiya, 2,4 faizi Birləşmiş Krallıq, 2,2 faizi Belarus, 1,8 faizi Qazaxıstan, 1,7 faizi Fransa, hər biri 1,4 faiz olmaqla Koreya, Türkmənistan və Çexiyanın, 19,6 faizi isə digər ölkələrin payına düşmüşdür. İdxal məhsulları sırasında maşın və mexanizmlər, elektrik aparatları və avadanlıqlar, ərzaq malları, nəqliyyat vasitələri, əczaçılıq məhsulları, tütün və mebel üstünlük təşkil etmişdir. Hesabat dövründə idxal edilən məhsulların arasında həm artan, həm də azalanlar olmuşdur. Bu aylar buğdanın, bitki yağlarının, çayın, minik və yük avtomobillərinin, məişət kondisionerlərinin, qara metal boruların, mebelin, gübrələrin idxalı artsa da, siqaretin, xam şəkər və şəkərin, kərə yağının, kartofun, mal ətinin, təzə tərəvəzin, polad prokatının və digər malların idxalında kifayət qədər yüksək azalma qeydə alınmışdır. İdxalda azalma tendensiyasının ilk növbədə yerli istehsalın artması ilə bağlı olması xüsusi qeyd edilməlidir.

İxraca gəldikdə, ilin əvvəlindən ötən 7 ay ərzində onun strukturunda xam neft, təbii qaz, neft məhsulları, meyvə-tərəvəz, plastik kütlə, alüminium, qara metal və onlardan hazırlanan məmulatlar, pambıq lifi və ipliyi, kimya sənayesi məhsulları, şəkər, bitki yağları, alkoqollu və alkoqolsuz içkilər üstünlük təşkil etmişdir. Bu dövrdə təzə meyvə ixracı 48, kartof - 15,5, bitki yağları - 23,6, meyvə və tərəvəz konservləri - 23,5, polietilen - 10,9, emal olunmamış alüminium - 18,5, pambıq lifi - 66,9, qara metal borular - 10,2, pambıq ipliyi - 23,1 faiz, təbii üzüm şərabları və üzüm suslosu 2 dəfə artmışdır.

Ümumiyyətlə, yanvar-iyul aylarında ölkə üzrə qeyri-neft məhsullarının ixracı ötən ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 13,5, real ifadədə 3,8 faiz artaraq 968,6 milyon dollarlığa çatmışdır.

Azərbaycanın məhsul ixrac etdiyi ölkələrin coğrafiyası da kifayət qədər genişdir. Onların sırasında İtaliya, Türkiyə, İsrail, Hindistan, İndoneziya, Kanada, Portuqaliya, Almaniya, Çexiya, Rusiya, İspaniya, ABŞ, Birləşmiş Krallıq, Avstriya, Yunanıstan, Gürcüstan kimi ölkələr var.

***Raqif MƏMMƏDOV,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə Avstriya Respublikasının Metrologiya və Mərzçəkmə Federal Qurumu arasında daşınmaz əmlakın kadastrı və coğrafi məlumat sistemi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə Avstriya Respublikasının Metrologiya və Mərzçəkmə Federal Qurumu arasında daşınmaz əmlakın kadastrı və coğrafi məlumat sistemi sahəsində əməkdaşlığa dair 2018-ci il iyulun 6-da Vyana şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Avstriya Respublikası hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*

## "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza verilməsi prosedurunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 yanvar tarixli 1803 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 258, № 12, maddə 1058; 2009, № 2, maddə 75, № 7, maddə 532, № 8, maddə 618, № 10, maddə 776; 2010, № 2, maddə 88, № 7, maddə 610, № 8, maddə 717, № 9, maddə 770; 2011, № 4, maddə 282, № 10, maddə 891; 2012, № 8, maddə 787; 2013, № 9, maddə 1046, № 11, maddələr 1321, 1339; 2014, № 2, maddə 122, № 9, maddələr 1027, 1062; 2015, № 2, maddə 121, № 5, maddələr 521, 543, № 9, maddə 989; 2016, № 2 (II kitab), maddə 228, № 3, maddə 470, № 5, maddələr 869, 879, № 9, maddə 1464, № 10, maddə 1643, № 11, maddə 1816; 2017, № 2, maddələr 173, 185, № 5, maddələr 776, 817, № 8, maddə 1521; 2018, № 2, maddə 189, № 3, maddə 449, № 4, maddələr 662, 682; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 avqust tarixli 238 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"nin 10.3.1.1-ci yarımbəndində "bəndində" sözü "və 7-1.0-cı bəndlərində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*

## "Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə vizaların rəsmiləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 13 sentyabr tarixli 326 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza verilməsi prosedurunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 yanvar tarixli 1803 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə vizaların rəsmiləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 13 sentyabr tarixli 326 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 9, maddə 774, № 10, maddələr 855, 859; 2011, № 2, maddə 80; 2018, № 1, maddə 58) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci bəndə "rəisinin" sözündən sonra ", Azərbaycan Respublikası xarici işlər nazirinin" sözləri əlavə edilsin;
2. 5.2-ci bənd ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*

# Qafqaz ziddiyyətləri

*Azərbaycan sülhün qorunmasında, Ermənistan isə müharibələrin alovlanmasında maraqlıdır*

Xəzəryanı ölkələrin bu dənizin hüquqi statusu ilə bağlı imzaladıqları konvensiya şərhçilər tərəfindən sülhə, əmin-amanlığa atılan addım kimi yüksək dəyərləndirilir. Eyni zamanda, son günlər planetdə baş verən gərginliklərin və qarşıdurmaların ümumi mənzərəsində beş ölkənin 22 il ərzində apardığı müzakirələrin sonunda əldə etdikləri razılaşmalar xüsusi diqqət çəkir, beynəlxalq ekspertlər tərəfindən Xəzərin ana qanunu kimi qiymətləndirilir. Eyni zamanda bu sammitdən sonra Azərbaycan-Rusiya münasibətlərinin yeni mərhələsinin başlanması önə çəkilir.

"Xəzər beşliyi"nin zirvə toplantısında bütün mübahisəli məsələlərin həllinin tapılması həm də ona görə xüsusi əhəmiyyət kəsb edir ki, sonuncu iki əsrin qovşağında dövlətlər arasında bir çox mübahisəli məsələlər dalana dirənmiş, qarşılıqlı narazılıqlara səbəb olmuş və həlli tapılmayan münaqişələrə, bir çox hallarda isə sonu görünməyən müharibələrə çevrilmişdir. Bu baxımdan "Xəzər beşliyi"nin onilliklər boyu davam edən müzakirələrinin öz əksini Xəzər konvensiyasında tapması müasir dünya tarixi üçün ibrətamiz əhəmiyyət kəsb edir.

Birincisi, ona görə ki, Cənubi Qafqaz əsrlər boyu müharibələrin və erməni separatizminin təsiri altında münaqişələrin əbədi zəncirləndiyi məkana çevrilmişdir. Bakıda ilk neft quyusu fəvvarə vuran gündən hamı bura can atıb, müxtəlif yollarla Bakı neftini ələ keçirmək, ya da ondan faydalanmaq, payını götürmək üçün səylər göstəriblər. Birinci və İkinci dünya müharibələrinin hər ikisində vuruşan tərəflərin əsas məqsədlərindən biri də Bakı neftini ələ keçirmək olub.

Lakin bu qüvvələrin içində erməni millətçiləri üzdə görünməsələr də, hər hansı dövləti təmsil etməsələr də, Bakıda erməni mövcudluğunu artırmaq, Azərbaycan ərazilərini ermənilәşdirmək üçün açıq döyüşən dövlətlərdən daha aqressiv mövqe nümayiş etdirmiş, ən ağır bəşəri cinayətlərə imza atmışlar. Türkiyədən qaçan erməni-daşnak qüvvələrinin çar qoşunlarının qalıqları ilə birləşərək Bakıda və Azərbaycanın digər rayonlarında qırğınlar törətməsi də bu məqsədə xidmət edirdi. Əslində "dənizdən-dənizə böyük Ermənistan" yaratmaq ideyasının açması da Bakı neftinə sahib çıxmaq deməkdir. Şaumyanın Almaniyadan birbaşa Leninin yanına gəlməsi, oradan da Qafqazın səlahiyyətli komissarı təyin edilməsi təsadüfdən daha çox ermənilərin xarici kəşfiyyat strukturları ilə sıx əməkdaşlığı ilə bağlı idi.

1918-ci ildə bolşeviklərlə Berlin arasında Brest müqaviləsi imzalandıqdan sonra almanlar ingilislərin Bakı neftinə yolunu kəsməyə çalışırdılar. Gəncədə o illərdə peyda olan qraf Verner fon Şulenberq, rus kəşfiyyatının məlumatına görə, bölgədə hələ Birinci Dünya müharibəsinədək geniş agentura şəbəkəsini yarada bilmişdi. Məhz onun sayəsində Gəncədə alman təlimatçılarından başqa alman kəşfiyyatının zabitləri də peyda olurdu. Eyni zamanda, Şulenberq Şaumyanla əlaqə yaratmağa çalışır. Bu cəhdlər barədə Şaumyanın özü dəfələrlə Leninə - alman kəşfiyyatının casusuna məruzə edir. Nəzərə alaq ki, arvadı alman olan Şaumyan nə səbəbdənsə Gəncə ilə apardığı yazışmaları məhv etmir. Məhz bu yazışmaların məzmununa görə o, alman kəşfiyyatına işləməkdə ittiham edilir.

Erməni millətçilərinin Bakı neftinə sahib çıxmaq üçün istər ruslarla, istər almanlarla, istərsə də digər xarici qüvvələrlə açıq əməkdaşlığa getməsini ortaya qoyan çoxsaylı faktlar mövcuddur.

İkinci Dünya müharibəsində elə bir dövlət tapmaq olmazdı ki, Bakı neftinə can atmasın! Almanların öz planı var idi, ingilislər və amerikalılar Stalinə tövsiyə edirdilər ki, əsas qüvvələrini Hitlerə qarşı qoysun, Bakının müdafiəsini də müttəfiqlərinə həvalə etsin.

***Ardı 3-cü səh.***

# Pambıq yığımı sürətlənir





Ağcabədi kəndlisinin çəkdiyi zəhmət, axıtdığı alın təri hədər getməyib. Göz işlədikcə uzanan pambıq tarlaları başdan-başa ağ örpəyə bürünüb. Xoş güzəran mənbəyinə çevrilən pambığı tez və itkisiz yığıb tədarük etmək üçün rayonda bütün qüvvələr səfərbərdir.

Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələrdən olan pambıqçılığı inkişaf etdirmək, bu sahədə əvvəlki şöhrəti qaytarmaq barədə tapşırıq və tövsiyələri Ağcabədidə də real nəticələrini verir. Dövlətin davamlı qayğısı torpaq mülkiyyətçilərinin pambıqçılığa marağını artırıb. Nəticədə pambıq əkini sahələri ildən-ilə genişlənir, məhsul istehsalı artır. Keçən il rayonda 20.497 ton pambıq istehsal olunmuş, hər hektarın orta məhsuldarlığı 21.5 sentner təşkil etmişdi. Bu, respublikanın pambıqçılıq rayonları arasında qazanılan yüksək göstəricilərdən biridir. Qazanılmış yüksək nailiyyət arxayınlıq yaratmır. Bu il 10 min hektar sahədə pambıq əkilmiş, becərmə dövründə aqrotexniki tələblərə ciddi əməl olunmuşdur. Aqrotexniki qaydaların keyfiyyətlə yerinə yetirilməsinin məntiqi nəticəsidir ki, tarlalar bol məhsuldan xəbər verir.

Pambıqçılığın inkişafında Ağcabədinin qazandığı öncül mövqe bu istiqamətdə uğurla həyata keçirilən məqsədyönlü təşkilat-təsərrüfat tədbirlərinin nəticəsi olmaqla yanaşı, əmək adamlarının fədakarlıq nümunəsinin real göstəricisidir. Hər dövrün öz qəhrəmanları olur. Tofiq İsmayılov çağdaş günlərimizin əmək qəhrəmanlarındandır. Keçən il hər hektardan 54 sentner məhsul götürən fermer Prezident İlham Əliyevin sərəncamı ilə birinci dərəcəli "Əmək ordeni"nə layiq görülmüşdür. Əməyinə verilən yüksək qiymət bu sadə zəhmətkeşi yeni nailiyyətlərə ruhlandırır. Bu il Yeni Qaradolaq kəndində 50 hektar sahədə pambıq əkib-becərən fermer cari mövsümdə rekordu təzələmək əzmindədir.

Bu günlər Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov da əmək qəhrəmanının tarlasına gəlib pambıqçılara xeyir-dua vermiş, xoş arzularını çatdırmışdır. Həmin gün fermer təsərrüfatında maşınlar 5 hektar sahənin məhsulunu yığmışdır. Nəticə sevindiricidir. Gün ərzində 27.195 kiloqram ton pambıq yığılmış, hər hektarın orta məhsuldarlığı 56 sentner olmuşdur. Tofiq İsmayılov dedi ki, torpaq heç zaman borclu qalmır. Çəkdiyimiz zəhmət, axıtdığımız alın təri heç zaman hədər getmir. Yüksək mükafat üzərimə məsuliyyət yükü qoyub, arxayınlaşmağa haqqım yoxdur. Yaxşı dolanışığımız, ailəmizin firavan həyatı pambıqla bağlıdır. Bu gün dövlət səviyyəsində pambıqçılığın inkişafına göstərilən qayğı və diqqət bizə stimul verir. Pambığın qiymətinin artırılması hər kəsdə razılıq doğurur. Bu il də məhsulumuz boldur.

Bu günlər rayonun ağ örpəkli pambıq tarlalarında məhsul bolluğunun yaratdığı xoş ovqat yaşanır. Məhsul yığımının sürəti hər gün daha da artır. Hələlik hər hektarın orta məhsuldarlığı 31 sentnerdir. Məhsul yığımında texnikanın gücünə arxalanırlar. Sahələrin maşınla yığıma hazırlanması davam etdirilir, kolların yarpaqlarının tökdürülməsi üçün dərmanlama işləri sürətləndirilir. Rayondakı 42 pambıqyığan maşının hələlik təxminən yarısı tarlalara çıxır. Yaxın günlərdə bütün yığım texnikası tarlalara çıxacaq və bununla məhsul yığımında sürət ikiqat artacaq.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası İdarə Heyətinin üzvləri bu fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş nizamnaməyə uyğun olaraq təyin olunana qədər İdarə Heyətinin vəzifələrini Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının bu fərman qüvvəyə mindiyi günədək formalaşmış İdarə Heyəti həyata keçirir.

4. Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası bu fərmandan irəli gələn məsələləri həll etsinlər.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

6. "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 10 mart tarixli 828 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 449; 2017, № 6, maddə 1115) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsi

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (bundan sonra - Palata) qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları (bank, bank olmayan kredit təşkilatları və poçt rabitəsinin operatoru), valyuta mübadiləsi fəaliyyəti və ödəniş sistemləri (bundan sonra - maliyyə bazarları) sahəsində fəaliyyətin lisenziyalaşdırılmasını, tənzimlənməsini və həmin sahələrə nəzarət sisteminin şəffaflığını və çevikliyini təmin edir.

1.2. Palata öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Palata öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Palata ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Palata sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməz. Palatanın fəaliyyəti nəticəsində əldə olunan vəsait (gəlir) onun işinin təmin edilməsinə yönəldilir.

1.5. Palatanın müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Palatanın əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Palata məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Palata Bakı şəhərində yerləşir.

### 2. Palatanın fəaliyyətinin məqsədi və fəaliyyət istiqamətləri

2.1. Palatanın fəaliyyətinin məqsədi maliyyə bazarları sahəsinin lisenziyalaşdırılmasını, tənzimlənməsini və bu sahəyə nəzarəti həyata keçirmək, Azərbaycan Respublikasında maliyyə bazarlarının səmərəli fəaliyyətini və dayanıqlığını təmin etmək, kreditorların, sığortalıların, investorların və maliyyə bazarlarının digər istehlakçılarının hüquqlarını qorumaqdır. Palata bu nizamnamə ilə müəyyən edilmiş fəaliyyəti həyata keçirərkən maliyyə bazarlarının tənzimlənməsi sahəsində qabaqcıl beynəlxalq prinsip və standartları əsas götürür.

2.2. Palatanın fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. maliyyə bazarları sahəsində dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək, tənzimləməni və qüvvədə olan qanunvericiliyə əməl edilməsinə nəzarəti həyata keçirmək;

2.2.2. maliyyə bazarları sahəsinin inkişafını təmin etmək;

2.2.3. makroprudensial nəzarətin həyata keçirilməsini təmin etmək;

2.2.4. maliyyə bazarlarının tənzimlənməsi ilə bağlı normativ xarakterli aktlar qəbul etmək və müvafiq hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək;

2.2.5. maliyyə bazarlarında fəaliyyətin lisenziyalaşdırılmasını, icazələrin verilməsini və ləğv edilməsini təmin etmək;

2.2.6. maliyyə bazarlarında davamlı və hərtərəfli nəzarətin həyata keçirilməsini, yoxlamalar aparılmasını və ya bu yoxlamaların keçirilməsinin üçüncü şəxslərə həvalə edilməsini, hesabatların alınmasını təmin etmək;

2.2.7. əmanətlərin sığortalanması sahəsində nəzarət sisteminin fəaliyyətini təmin etmək;

2.2.8. maliyyə bazarlarında vahid informasiya sisteminin tətbiqini təmin etmək.

### 3. Palatanın vəzifələri və hüquqları

3.1. Bu nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Palatanın vəzifələri aşağıdakılardır:

3.1.1. Palatanın nəzarət etdiyi subyektlərdə stress-testlərin keçirilmə qaydasını müəyyənləşdirmək və onları təşkil etmək, maliyyə bazarlarında sistem risklərini təhlil etmək, stress-test və ssenarilərin təhlilini aparmaq, bu təhlil əsasında maliyyə bazarlarının tənzimlənməsi istiqamətlərini müəyyənləşdirmək və tətbiq etmək;

3.1.2. Palatanın nəzarət etdiyi subyektlərə münasibətdə təsir tədbirlərini tətbiq etmək;

3.1.3. Palatanın nəzarət etdiyi subyektlərin sağlamlaşdırılması sahəsində tədbirlər planı hazırlamaq, onun icrasını əlaqələndirmək və icrasına nəzarət etmək;

3.1.4. Palatanın nəzarət etdiyi subyektlərdə korporativ idarəetmə standartlarını müəyyənləşdirmək və onların tətbiqinə nəzarət etmək;

3.1.5. aksiz markalarının sifarişi, onların satışı və uçotunun aparılması qaydalarını müəyyən etmək və bu qaydalara riayət olunmasına nəzarəti həyata keçirmək;

3.1.6. maliyyə bazarlarında istehlakçıların və investorların hüquqlarını müdafiə etmək;

3.1.7. maliyyə bazarlarının inkişaf istiqamətləri üzrə təkliflər vermək;

3.1.8. dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin maliyyə bazarları sahəsində fəaliyyətini əlaqələndirmək;

3.1.9. maliyyə bazarları sahəsində qanunvericilik aktlarının, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.10. maliyyə bazarları sahəsində normativ xarakterli aktlar qəbul etmək;

3.1.11. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Palatanın səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.12. maliyyə bazarları sahəsində hüquqmüəyyənedici sənədlər vermək, müvafiq məsələlərə münasibət bildirmək;

3.1.13. maliyyə bazarları sahəsində inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.14. maliyyə bazarlarının və alətlərinin təbliği, maliyyə bazarları və investisiyalar sahəsində əhalinin maarifləndirilməsi məqsədilə tədbirlər görmək;

3.1.15. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzarət orqanının səlahiyyətlərini həyata keçirmək;

3.1.16. maliyyə bazarları sahəsində elektron xidmətləri "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.17. Palatanın fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.18. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Palatanın əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.19. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.20. Palataya ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.21. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.22. Palatanın informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.23. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.24. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.25. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.26. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Palatanın aşağıdakı hüquqları vardır:

3.2.1. maliyyə bazarları sahəsində normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. maliyyə bazarları sahəsində beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək və bu müqavilələrin layihələrinin hazırlanmasında iştirak etmək;

3.2.3. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) və mərkəzi bankları ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. maliyyə bazarları sahəsində yoxlamalar aparmaq, icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.5. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlərin göstərilməsinə (hüquqi hərəkətlərin həyata keçirilməsinə) görə həmin qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu, habelə qanunla müəyyən edildiyi hallarda digər ödənişlər tutmaq;

3.2.6. tutduğu dövlət rüsumunun Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hissəsini əldə etmək;

3.2.7. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.8. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.9. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.10. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

3.2.11. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.12. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.13. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.14. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 4. Palatanın idarə olunması

4.1. Palata öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Palatanı idarəetmə orqanı idarə heyətidir.

4.3. Palatanın idarə Heyəti (bundan sonra - İdarə Heyəti) Palataya ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyətinin tərkibi beş nəfərdən - Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyəti sədrindən, onun iki müavinindən və digər iki üzvdən ibarətdir.

4.4. İqtisadiyyat və ya hüquq ixtisasları üzrə ali təhsili, iqtisadiyyat, hüquq, maliyyə və ya bank işi sahəsində təcrübəsi olan, ağır və xüsusilə ağır cinayətlərə, habelə mülkiyyət əleyhinə, iqtisadi fəaliyyət sahəsində, qulluq mənafeyi əleyhinə cinayətlərə görə məhkum edilməmiş, xarici dövlətlər qarşısında heç bir öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı İdarə Heyətinin üzvü ola bilər.

4.5. İdarə Heyətinin üzvləri, habelə Palatanın bütün digər vəzifəli şəxsləri Palatada işlədikləri dövrdə elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli fəaliyyətlə, həmçinin sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməzlər. İdarə Heyətinin üzvləri, eləcə də Palatanın bütün digər vəzifəli şəxsləri, qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, hüquqi şəxslərin idarəetmə orqanlarında vəzifə tuta bilməzlər.

4.6. İdarə Heyətinin üzvləri, onların yaxın qohumları, habelə Palatanın bütün digər vəzifəli şəxsləri Palatanın nəzarət etdiyi hüquqi şəxslərdə mühüm iştirak payına malik ola bilməzlər və onların fəaliyyətindən gəlir əldə etmək maraqları olmamalıdır.

4.7. İdarə Heyətinin üzvləri, habelə Palatanın bütün digər vəzifəli şəxsləri siyasi partiyalarda və ictimai birliklərə üzv ola bilməz və orada vəzifə tuta bilməzlər.

4.8. İdarə Heyətinin üzvləri maraqların toqquşması halları barədə İdarə Heyətinin sədrinə, İdarə Heyətinin sədri isə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

4.9. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə onun müavinlərindən biri, o da olmadıqda isə İdarə Heyətinin digər üzvü icra edir.

4.10. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.10.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək və sənədlər (o cümlədən Palatanın maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.10.2. Palatanın inkişaf istiqamətlərini, strateji məqsəd və planlarını müəyyən etmək və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;

4.10.3. Palatanın kapital ehtiyatlarının formalaşdırılması və bu ehtiyatlardan istifadə qaydasını müəyyən etmək;

4.10.4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Palatanın nəzarət etdiyi subyektlərin ödəməli olduqları haqların məbləğini və bu haqların ödənilmə qaydasını müəyyən etmək;

4.10.5. qanunla müəyyən olunmuş hallarda və qaydada maliyyə bazarları sahəsində lisenziyalaşdırma (bank və sığorta fəaliyyətinə lisenziya verilməsinə münasibətdə - Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla) və icazələrlə bağlı qərar qəbul etmək;

4.10.6. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Palatanın strukturunu və işçilərinin say həddini, maliyyə və kapital bazarında uyğun əməkhaqqı səviyyəsini nəzərə almaqla əməkhaqqı fondunu və işçilərin əməkhaqlarını təsdiq etmək, Palatanın əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.10.7. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Palatanın maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.10.8. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Palatanın kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.10.9. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Palatanın idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.10.10. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Palatanın xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Palatanın aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.10.11. aidiyyəti şəxslə dəyəri Palatanın aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.10.12. normativ xarakterli aktları, o cümlədən iqtisadi tənzimləmə (prudensial) normativlərini təsdiq etmək;

4.10.13. Palatanın nəzarət etdiyi subyektlərdə müvəqqəti inzibatçının təyin edilməsi və səlahiyyətinə xitam verilməsi barədə qərar qəbul etmək;

4.10.14. Palatanın fəaliyyətinə nəzarət etmək;

4.10.15. Palatanın fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), idarəetmə prosedurlarını, struktur bölmələrinin, habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq etmək;

4.10.16. Palatanın fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.10.17. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.10.18. daxili audit xidmətinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.10.19. əvvəlki ildə ölkənin maliyyə bazarlarındakı vəziyyət və inkişaf perspektivləri barədə hər il martın 31-dək Azərbaycan Respublikasının Prezidentinə hesabat təqdim etmək;

4.10.20. Palatanın fəaliyyətini təşkil etmək;

4.10.21. Palatanın strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.10.22. bu nizamnamənin 3.1.20-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.10.23. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.10.24. audit fəaliyyətinin risk əsaslı illik planını təsdiq etmək;

4.10.25. bu nizamnamənin 3.1.9-cu və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək.

4.11. İdarə Heyətinin iclasları ayda bir dəfədən az olmayaraq çağırılır. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən digər üzvün) səsi həlledicidir.

4.12. İdarə Heyətinin üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.13. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.14. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.15. İdarə Heyətinin sədri:

4.15.1. Palatanın cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.15.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.15.3. öz təşəbbüsü ilə və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.15.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.15.5. Palatanın fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.15.6. Palatanın fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.15.7. Palatanın vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.15.8. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Palatanın Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.15.9. Palatanın işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

4.15.10. Palatanın, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.15.11. Palatanın əmlakından bu nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.15.12. bu nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Palatanın adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.15.13. Palatanın fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.15.14. Palatanın fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.15.15. Palatada kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.15.16. Palatada müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

4.15.17. İdarə Heyətinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar verir.

4.16. İdarə Heyətinin üzvləri:

4.16.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.16.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.16.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.16.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.16.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.17. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

### 5. Palatanın nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Palatanın nizamnamə fondu 5 000 000 (beş milyon) manatdır.

5.2. Palatanın əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Palata öz əmlakından yalnız bu nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Palata balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Palatanın sərbəst maliyyə aktivləri Azərbaycan Respublikasının Dövlət Xəzinədarlığı Agentliyində saxlanılır.

5.5. Palata qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Palatanın, onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.6. Palata "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlərin göstərilməsinə (hüquqi hərəkətlərin həyata keçirilməsinə) görə həmin qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu, habelə qanunla müəyyən edilmiş digər ödənişlər tutur.

5.7. Palatanın tutduğu dövlət rüsumunun Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən hissəsi Palatanın fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə onun hesabına köçürülür.

5.8. Palatanın məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə (tariflərə) aid deyildir.

### 6. Palatanın fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Palatanın fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

6.2. Palatanın fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

### 7. Daxili və kənar audit

7.1. Palata daxili audit xidmətini təsis edir. Daxili audit və bu xidmətin işini icra edən şəxslər öz fəaliyyətlərində müstəqildirlər və öz funksiyalarını icra edərkən onların müstəqil qiymət vermək, nəticələr çıxarmaq hüququ vardır.

7.2. Palatanın daxili audit xidmətinin əməkdaşları "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə cavab verməlidirlər.

7.3. Palatanın daxili audit xidməti İdarə Heyətinə tabedir və ona hesabat verir. Daxili audit xidmətinin əməkdaşlarını İdarə Heyəti vəzifəyə təyin və vəzifədən azad edir.

7.4. Daxili audit xidmətinin əsas funksiyaları aşağıdakılardan ibarətdir:

7.4.1. audit fəaliyyətinin risk əsaslı illik planını hazırlamaq və təsdiq üçün İdarə Heyətinə təqdim etmək;

7.4.2. risklərin idarə olunması, daxili idarəetmə və nəzarət sistemlərini, habelə idarəetmə prosesini qiymətləndirmək üçün sistemli və məqsədyönlü yanaşma tətbiq edərək öz məqsədlərinə nail olmaqda Palatanı dəstəkləmək və risklərin idarə olunması, daxili idarəetmə və nəzarət sistemlərinin, həmçinin idarəetmə prosesinin təkmilləşdirilməsinə kömək etmək;

7.4.3. Palatanın maliyyə-təsərrüfat fəaliyyətinin, habelə maliyyə vəziyyətinin dəqiq qiymətləndirilməsi məqsədilə bütün sahələrdə aparılan əməliyyatların mütəmadi auditini həyata keçirmək;

7.4.4. daxili audit yoxlamalarının nəticələri haqqında, habelə aşkarlanmış çatışmazlıqların aradan qaldırılması üçün İdarə Heyətinə təkliflər vermək;

7.4.5. "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanununda və bu nizamnamədə nəzərdə tutulmuş digər funksiyaları yerinə yetirmək.

7.5. Palatanın bütün müvafiq bölmələri və əməkdaşları daxili auditi həyata keçirən əməkdaşların tələbi ilə zəruri sənədləri onlara təqdim etməyə, onların vəzifələrinin icrası üçün zəruri şərait yaratmağa borcludurlar.

7.6. Palatanın maliyyə-təsərrüfat fəaliyyətinin auditi İdarə Heyətinin qərarı ilə həyata keçirilir.

7.7. Palata öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

7.8. Eyni kənar auditorla ardıcıl 3 ildən artıq müddətə müqavilə bağlamaq olmaz.

### 8. Palatada uçot və hesabat

8.1. Palata "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

8.2. Palata "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik uçot aparır, statistik hesabatları tərtib və təqdim edir.

8.3. Palata idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

### 9. Palatanın ləğvi və yenidən təşkili

Palatanın ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 23 may tarixli 2834 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 23 may tarixli 2834 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 423; 2010, № 2, maddə 80; 2012, № 2, maddə 119, № 12, maddə 1294; 2014, № 2, maddə 112, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1518) 1-ci hissəsi ilə yaradılmış komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası energetika nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti
Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini
Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri.".

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Rumıniya tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2018-ci il*

# Qafqazın müsəlman ruhanilərinin həmvətənlərə və din xadimlərinə müraciəti

Qroznıda Qafqaz Xalqları Ali Dini Şurasının sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə bu qurumun növbədənkənar iclası keçirilib. Qafqaz Müsəlmanları İdarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda regionda yaranmış vəziyyətlə əlaqədar müraciət qəbul edilib. Müraciətdə deyilir:

"Qafqaz Xalqlarının Ali Dini Şurası və Şimali Qafqaz Müsəlmanlarını Əlaqələndirmə Mərkəzi (ŞQMƏM) bütün fəaliyyəti dövründə İslam dininin sülhsevər mahiyyətinə uyğun olaraq onun həqiqi mənasını çatdırmağa çalışır. İslamın gücü birlik və həmrəylikdədir. Ulu Tanrı bizi bir-birimizə münasibətdə qardaş kimi yaradıb. Bu gün bizim ümumi düşmənlərimiz bütün dünyada İslam dininə qarşı məqsədyönlü şəkildə mübarizə aparırlar. Məhz bu səbəbdən məkrli qüvvələr bizi, İslam dininin daşıyıcıları olan müsəlmanları zəiflətməyə, bizi bir-birimizin əleyhinə və başqa dini dəyərlərin daşıyıcılarının əleyhinə yönəltməyə, hamımızı vuruşdurmağa çalışırlar. Təəssüf ki, bəzən onlar buna nail olurlar.

Son zamanlar Qafqaz Xalqları Ali Dini Şurası və Şimali Qafqaz Müsəlmanlarını Əlaqələndirmə Mərkəzi Şimali Qafqaz respublikalarından, xüsusən Kabarda-Balkar Respublikasından və İnquşetiyadan olan müsəlman qardaşlarımızın və bacılarımızın ətrafında baş verən prosesləri narahatlıqla izləyir. İndiki siyasi vəziyyətləri, keçmişi və gələcəyi eyni olan bu respublikalar Rusiya kimi böyük ölkədə birləşir. Rusiya Federasiyasının tərkibinə daxil olan bu xalqlar ən çətin dövrlərdə, Sovet İttifaqı dövründə birgə mövcud olub, hər iki xalq eyni sürgünlərə (deportasiyalara) məruz qalıb və bütün bu sınaqlardan birlikdə qürurla çıxıblar.

Terrorçuluq, minlərlə dinc sakinin qətlə yetirilməsi, dağıntılar bizim heç birimizdən yan keçməyib. Bütün bu respublikalar indiki sakit və təhlükəsiz həyatlarına görə Qafqazda sülh naminə özlərini qurban vermiş şəhidlərinə borcludurlar! Biz qardaş Qafqaz respublikalarının Ulu Tanrıya böyük sevgi bəsləyən xalqları arasında qarşıdurmaya rəvac verən hər bir təşəbbüsü, hər bir əməli qəzəblə pisləyirik.

Biz bütün Qafqaz xalqlarını bizim qardaş xalqlar arasında yaranan anlaşılmazlıqları səbirlə və şüurlu sürətdə həll etməyə çağırırıq. Ulu Tanrının buyurduqları bütün maneələrin açarıdır. Allahın göstərdiyi yoldan başqa düzgün həll yolları yoxdur.

Biz hesab edirik ki, din xadimləri və Qafqaz xalqlarının nümayəndələri hansı konfessiyaya mənsub olmalarından asılı olmayaraq, onlardan təxribatçılıq oyunlarında istifadə edilməsinə yol verməməlidirlər. Əksinə, Qafqaz xalqlarını birləşdirən dəyərlərə, ümumi birliyə sadiq qalmağa, onların qardaşlığına hörmətlə yanaşmağa çağırmaq lazımdır.

Biz inanırıq ki, Qafqazın Ulu Yaradanı sevən qardaş xalqları bizim çağırışımızı düzgün qəbul edəcək və qarşıdurmaya yol verməyəcək, bütün məsələləri dinc yolla, həmrəylik və qarşılıqlı hörmət əsasında həll edəcəklər.

Biz blogerlərə və kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciət edərək onları qardaş respublikalarda yaranmış vəziyyət barədə fikir söyləyərkən çox nəzakətli və ehtiyatlı olmağa, bu gün rezonans doğuran problemlərə və məsələlərə korrekt yanaşmağa çağırırıq. Öz yazılarınızda Qafqaz respublikalarının sakinlərini bir-birinə qarşı təhrik etməməyi və vəziyyəti gərginləşdirməməyi xahiş edirik. Unutmayın ki, biz hamımız müsəlmanlarıq və deməli, biz hamımız qardaşlar və bacılarıq! Qafqaz bizim ümumi evimizdir. Buna görə biz onu qarışıqlıqdan və hərc-mərclikdən qorumağa borcluyuq!

Qafqaz Xalqları Ali Dini Şurası və Şimali Qafqaz Müsəlmanlarını Əlaqələndirmə Mərkəzinin üzvləri:

***Şeyxülislam Allahşükür Paşazadə*** *- Qafqaz Xalqları Ali Dini Şurasının sədri*
***Berdiyev Hacı İsmayıl*** *- Qaraçay-Çərkəz Respublikasının müftisi, ŞQMƏM-in sədri*
***Mejiyev Hacı Salah*** *- Çeçen Respublikasının müftisi, ŞQMƏM sədrinin birinci müavini*
***Abdullayev Hacı Əhməd*** *- Dağıstan Respublikasının müftisi, ŞQMƏM sədrinin müavini*
***Raximov Hacı Mühəmməd*** *- Stavropol diyarının müftisi, ŞQMƏM İcraiyyə Komitəsinin sədri*
***Qatsalov Hacı Hacımurad*** *- Şimali Osetiya-Alaniya Respublikasının müftisi*
***Dzasejev Hacı Həzrətəli*** *- Kabarda-Balkar Respublikasının müftisi*
***Karalayev Hacı Sultanəhməd*** *- Kalmık Respublikasının müftisi*
***Kardanov Hacı Askarbiy*** *- Adıgey Respublikasının və Krasnodar diyarının müftisi".*

# Milli Məclisin Sədri Antalyada Avrasiya ölkələri parlament sədrlərinin 3-cü görüşündə iştirak edəcək

Milli Məclisin Sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti oktyabrın 8-9-da Türkiyənin Antalya şəhərində keçiriləcək Avrasiya ölkələri parlament sədrlərinin 3-cü görüşündə iştirak edəcək. Tədbirə 40-dan çox ölkənin parlament nümayəndələri və bir sıra beynəlxalq təşkilatların təmsilçiləri qatılacaq.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin komitə sədri Əli Hüseynli, deputatlar Xanlar Fətiyev, Ağalar Vəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Toplantıda "Avrasiyada iqtisadi əməkdaşlıq, ətraf mühit və davamlı inkişaf" mövzusunda müzakirələr aparılacaq. Milli Məclisin Sədri mövzu ilə əlaqədar çıxış edəcək. Parlament sədrinin tədbirdə iştirak edən nümayəndə heyətlərinin başçıları ilə bir sıra görüşləri də nəzərdə tutulub.

# Muxtar respublikada payızlıq taxıl əkini aparılır

Əhalinin etibarlı ərzaq təminatında taxılçılıq mühüm yer tutur. Bu sahənin dövlət tərəfindən dəstəklənməsi, texnika, gübrə və toxum təminatı, eləcə də mütərəqqi suvarma sistemlərinin qurulması məhsul istehsalının artmasına səbəb olub. Hazırda muxtar respublikada payızlıq taxıl əkini aparılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin taxıl əkini sahələrinə gəlib, taxıl əkininin gedişi ilə maraqlanıb.

Məlumat verilib ki, muxtar respublikada payızlıq taxıl əkini zamanı aqrotexniki qaydalara əməl olunur, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri görülür. Toxumun dərmanlanması bu işdə xüsusi əhəmiyyətə malikdir. Torpaq mülkiyyətçilərinin yüksək reproduksiyalı məhsuldar toxumlarla təmin edilməsi sahəsində tədbirlər görülüb və tələbata uyğun toxum ehtiyatı yaradılıb.

"Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin taxıl sahələrində muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğunlaşdırılmış, şaxtaya, zərərvericilərə və xəstəliklərə qarşı davamlı olan "Qobustan", "Quality" və "Qılçıqsız" toxum sortları əkilir. Cücərmə qabiliyyəti 92-95 faiz olan toxum sortları Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Toxumçuluq laboratoriyasında analiz olunub. Bugünə kimi 303 hektar sahədə səpin aparılıb. Hər hektara torpağın strukturuna uyğun 100 kiloqram zənginləşdirilmiş qarışıq gübrə səpilir. Bu da cücərmədə və bitkinin vegetasiya dövründə inkişafı üçün mühüm rol oynayır.

Müasir texnika və texnoloji avadanlıqlarla təmin olunmuş "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin taxıl əkini sahələri 2 min hektardır. Ərazinin 818 hektarında qapalı suvarma şəbəkəsi qurulub. Hazırda 661 hektar sahədə qapalı suvarma şəbəkəsinin qurulması davam etdirilir.

Ali Məclisin Sədri torpaq mülkiyyətçilərinin keyfiyyətli və məhsuldar toxum sortları ilə təmin edilməsinin vacibliyini bildirib, muxtar respublikada dəmyə taxıl əkininin genişləndirilməsi, növbəli əkinə üstünlük verilməsi, ərazidə qoruyucu yonca əkininin aparılması və qapalı suvarma şəbəkəsinin qurulması barədə müvafiq tapşırıqlar verib.

# İtaliyalı dirijor Alvize Kazellati Heydər Əliyev Mərkəzində çıxış edib



Oktyabrın 5-də Heydər Əliyev Mərkəzində tanınmış italiyalı dirijor Alvize Kazellatinin rəhbərliyi ilə konsert proqramı təqdim olunub.

AZƏRTAC xəbər verir ki, konsertdə Alvize Kazellatinin dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında musiqilər səsləndirilib. Azərbaycanın xalq artisti, pianoçu Murad Adıgözəlzadə konsertdə solist olaraq çıxış edib. Musiqisevərlərin iştirak etdiyi gecədə dünya mədəniyyətinin dühalarından olan Volfqanq Amadey Motsart və Antonin Dvorjakın əsərləri səsləndirilib. Həyatın sevincli və kədərli anlarını, şən gülüş və faciə obrazlarını eyni təsir gücü ilə canlandıran hər iki bəstəkarın əsərləri yüzillərdir insanları heyran edir. Dünyada elə bir adam yoxdur ki, bu iki dühanın bəstələdiyi musiqilər onu riqqətə gətirməsin.

Konsert barədə təəssüratlarını bölüşən Alvize Kazellati deyib: "Belə bir peşəkar orkestrlə səhnəni bölüşmək çox xoş oldu. Bizim Bakıda olduğumuz müddətdə birgə gördüyümüz işin nəticəsi qonaqlar tərəfindən müsbət qarşılandı. Tamaşaçıların alqışları bunu bir daha təsdiqlədi. Heydər Əliyev Mərkəzi çox möhtəşəm binadır. Bu cür fərqli memarlıq üslubuna malik binada konsert vermək çox xoş oldu. Çünki bina həm daxildən, həm də xaricdən fantastik binadır. Bu cür gözəl tikilinin İtaliyada olmasını çox arzulayıram. Mən deyərdim ki, Bakı gələcəyi simvolizə edən, eyni zamanda modern şəhərdir. Şəhəriniz çox xoşuma gəldi".

Qeyd edək ki, Alvize Kazellatinin dirijor kimi debütü C.Rossininin "Sevilya bərbəri" operası ilə olub. O, İtaliyanın ən mühüm teatrlarında və nüfuzlu festivallarında çıxış edir. ABŞ-ın Nyu York və digər şəhərlərində İtaliya operasının təbliği məqsədilə hər il tədbirlər keçirən "Central Park Summer Concerts" təşkilatının prezidenti və bədii rəhbəridir.

# Qafqaz ziddiyyətləri

## *Azərbaycan sülhün qorunmasında, Ermənistan isə müharibələrin alovlanmasında maraqlıdır*

*Əvvəli 1-ci səh.*

Eyni zamanda cənubdan Bakıya soxulmağın yolları araşdırılırdı. Hətta uzaq Yaponiyanın da Azərbaycan nefti ilə bağlı müəyyən planları var idi. Bütün respublikalar keçmiş Sovet İttifaqının tərkibində hamı ilə birlikdə faşist Almaniyasına qarşı vuruşsa da, Ermənistan Bakı ilə bağlı məkrli planlarını həyata keçirmək, neftə sahib çıxmaq üçün ikinci məxfi cəbhə açmışdı. Bu gözəgörünməz cəbhədə daha ağır fasiləsiz döyüşlər gedirdi. Bütün Azərbaycanın etibarsız xalq kimi Orta Asiyaya sürgün edilməsi ideyasına ermənilər Mikoyanın vasitəsilə Stalini inandıra bilmişdilər. Məqsəd yenə də Bakı neftinin ələ keçirilməsi, Azərbaycanın erməniləşdirilməsi idi.

İkinci Dünya müharibəsində Bakı nefti keçmiş Sovet İttifaqının qələbəsini təmin etsə də, sovet rəhbərliyi Ermənistandan 200 minə yaxın azərbaycanlını sürgün etməklə bizim qələbəyə verdiyimiz töhfəni dəyərdən salıb heçə endirdi. Ermənilərin Ermənistana kütləvi köçü isə elə təsəvvür yaradırdı ki, sanki İkinci Dünya müharibəsi sovet vətəndaşlarının yox, erməni diasporunun qələbəsi idi. Reallıqda isə erməni nasistləri İkinci Dünya müharibəsində faşistlərin tərəfində döyüşürdü və alman kəşfiyyatı ilə sıx əməkdaşlıq edirdi. Bu müharibədə erməni nasistləri Sovet İttifaqının çökməsi və faşist Almaniyasının tərkibində yeni Ermənistan dövlətinin yaradılması üçün əllərindən gələni əsirgəmirdilər.

Məhz bu rakursdan yanaşanda Xəzər dənizinin statusu ilə bağlı beş dövlətin razılığa gəlməsi xüsusi əhəmiyyət kəsb edir. Regionda əmin-amanlığa, sülhə xidmət edən bu sammit Qafqazda əbədi müharibə ocağı yaratmağa can atan erməni millətçilərinə göz dağıdır. Məhz buna görə də erməni KİV "Azərbaycan uddu" deyib hay-küy salır.

"Beşliy"in Xəzərin statusu ilə bağlı müzakirələr apardığı 22 il ərzində və hətta bu razılıq əldə edildikdən sonra da erməni diasporu Xəzəryanı ölkələrin birliyini zəiflətməyə can atır. Bu ölkələrin arasına nifaq toxumu səpmək, onları qarşı-qarşıya qoymaq üçün həmlələrinə ara vermir. Hətta son günlər Rusiya erməniləri yenidən telekanallarda Qarabağ ermənilərini qızışdırır, yeni müharibə taktikalarını öyrədir, xaricdən erməni əsilli mütəxəssisləri dəvət etməyi tövsiyə edirlər. Rusiya-Türkiyə münasibətlərini dalana dirəmək, yeni müharibə ocağı yaratmaq üçün min oyundan çıxırlar. ABŞ-da isə yenidən erməni soyqırımı məsələsinin müzakirəyə çıxarılması buna əyani sübutdur. Erməni millətçiləri tarixən regionda münaqişələrin uzanıb müharibəyə çevrilməsinə xidmət edir, bu münaqişələrə bütün ölkələri cəlb etməyə çalışırlar. Ona görə də Azərbaycanın sülh sazişləri erməni separatizminin Qafqazda təsir qüvvəsini sıfıra yaxınlaşdırır.

Erməni millətçiləri başa düşürlər ki, artıq onlar 100 il əvvəlki kimi Bakıda at oynada bilməyəcəklər, Qafqazda əbədi müharibə ocaqları yaratmaq cəhdlərinin qarşısı alınacaq. Erməni faşistlərini yandıran da Azərbaycanın sülh təşəbbüslərinin ayaq tutub yeriməsi, "Xəzər beşliyi" kimi yeni siyasi blokun yaranmasıdır. Erməni diasporuna bir dövlətə qarşı vuruşmaq çətin deyildi, amma beş dövlətlə bir yerdə bacarmaq o qədər də asan məsələ deyil.

Bir faktı nəzərdən keçirək. Bütün Rusiya yaxşı bilir ki, Sovet İttifaqının dağılmasında aparıcı qüvvə Qorbaçovun ətrafında yağışdan sonra göbələk kimi bitən ermənilər idi. Məhz onların sayəsində bütün ittifaqda Dağlıq Qarabağ başda olmaqla onlarla qaynar nöqtə yaradıldı və bütün respublikalarda antisovet əhvali-ruhiyyəsi körükləndi, Moskvaya qarşı nifrət cücərdildi. Bununla bağlı internet resurslarında minlərlə məqalə oxuya bilərsiniz. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini müharibəyə çevirən erməni diasporu böyük güclərin dəstəyi ilə SSRİ-nin süqutunu qaçılmaz etdi. Tökülən qanlara məhəl qoymayan dünya birliyi Qorbaçova Nobel mükafatını təqdim etdi. Bu gün bir sıra Rusiya saytlarında Qorbaçov da, onun erməni ətrafı da Rusiyanın düşmənləri kimi göstərilir. Məhz Qarabağ problemi bir virus kimi dünyanın siyasi müstəvisində cərəyan edən siyasi proseslərə neqativ təsirini göstərməkdədir. Erməni millətçiləri xalqların öz müqəddəratını təyin etmək hüququndan silah kimi yapışaraq faşizmi adi normaya çevirə bildilər. Böyük güclər bu gün də erməni faşizminə sığal verməyi normal sayırlar. Təxminən 7-8 il bundan əvvəl Merkel demişdi ki, Dağlıq Qarabağ problemi Avropaya da mənfi təsir edə bilər. İndi Avropa dövlətləri heç bir məsuliyyət hiss etmədən öz tribunalarını erməni millətçilərinə təqdim edirlər. Onları hətta son zamanlar Ermənistanın siyasi və hərbi liderlərinin Dağlıq Qarabağda və İrəvanda erməni xalqına divan tutması, müharibədən varlanan oliqarxların ortaya çıxması belə diksindirmədi. Bu gün Ermənistanda erməni nasistlərinin tədricən hakimiyyətə gəlişi, iliyinədək faşist ideologiyası ilə zəhərlənən erməni rasist nəzəriyyəsinin banisi Njdeyə Yerevanın mərkəzində abidə ucaldılması da heç kimi narahat etmir.

İndi bütün dünyada müharibə ocaqlarının sayı-hesabı yoxdur, baş verənlərə görə heç kim məsuliyyət daşımır. Artıq faşizmin elementləri supergüclərin münasibətində özünü büruzə verməyə başlayır. Yəni Qarabağ sindromu normaya çevrilməkdədir. Kim kimə qarşı necə istəsə, hərəkət edir və özünü haqlı sayır.

Bu baxımdan son aylar dünyada baş verən və getdikcə dərinləşən ticarət müharibəsi hətta uzun illər müttəfiq sayılan aparıcı dövlətlərin münasibətlərində gərginlik yaradır, ciddi iqtisadi fəsadlara, dövlətlərarası münasibətlərin gərginləşməsinə səbəb olur. Bu baxımdan ABŞ-la İranın, Türkiyənin, Rusiyanın və Avropa dövlətlərinin münasibətlərində yaranan gərginliklər diqqət çəkir.

Erməni millətçiləri yenidən fəallaşır və bu gərginliklərdən faydalanmaq üçün dəridən-qabıqdan çıxır, yenidən Rusiya ilə Azərbaycan, Türkiyə ilə ABŞ münasibətlərini gərginləşdirməyə səy göstərir, sülhdən savaşı üstün tuturlar. Sanki yaşadıqları bütün dövlətlərin ərazilərində dağıdıcı fəaliyyətlə məşğul olmaq, qarşıdurmalardan faydalanmaq, ziddiyyətləri dərinləşdirmək onlar üçün sülhdən, əmin-amanlıqdan qat-qat faydalıdır.

Erməni millətçilərinin ən güclü dayaqlarından biri də Rusiyada yerləşir. Bu ölkədə erməni millətçilərinin qatı təmsilçiləri aparıcı KİV-də, dövlət qurumlarında, müxtəlif idarə və təşkilatlarda, elmi tədqiqat müəssisələrində yer tutublar. Onların əvvəlki mövqeyi qat-qat zəifləsə də, əllərinə fürsət düşən kimi Azərbaycan-Rusiya münasibətlərinə ciddi zərbələr endirməyə çalışırlar. Elə bu yaxınlarda Rusiya Dövlət Dumasının MDB ölkələri, Avrasiya inteqrasiyası və soydaşları ilə əlaqələri üzrə komitəsinin sədr müavini Konstantin Zatulinin Rusiya mətbuatına müsahibəsində Azərbaycan rəhbərliyini silahlanmaqda, hərbi büdcəni artırmaqda ittiham etməsi heç bir məntiqə sığmır. K.Zatulin və onun kimi ermənipərəst qüvvələrin Rusiyada mövcudluğu təbiidir. Bu qüvvələr imkan düşən kimi Azərbaycan-Rusiya münasibətlərini gərginləşdirməyə, erməni millətçilərini isə Rusiyaya sədaqətli zümrə kimi təqdim etməyə cəhd göstərirlər. Zatulinin müharibə başlayan halda Azərbaycan dövlətinin özbaşına dağılacağı barədə iddiası isə reallıqla əlaqəsi olmayan, emosional və əsassız təhdiddir. Azərbaycan-Rusiya münasibətlərinin yüksələn xətlə inkişaf etməsi, iki dövlət başçısının təkbətək görüşlərinin artması Rusiyada ermənipərəst qüvvələri çox narahat edir.

Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, Milli Məclisin deputatı Ç.Qənizadə Rusiya ilə Azərbaycan arasında dostluq-qardaşlıq münasibətlərinə belə çıxışların təsir edə bilməyəcəyini bildirib. O, həmçinin həmkarlarını da diqqətli olmağa, SSRİ dövründə baş verən hadisələri Rusiya ilə bağlamamağa çağırıb. Zatulinə gəldikdə isə, onun 2010-cu ildə Dağlıq Qarabağda qondarma "parlament seçkiləri"ndə müşahidəçi kimi iştirak etməsi millətçi ermənipərəst qüvvələrlə əməkdaşlığını üzə çıxaran faktlardan biridir. Görünür, Dağlıq Qarabağa qeyri-qanuni səfərinə görə Azərbaycan XİN tərəfindən adı arzuolunmaz şəxslərin siyahısına salınan rus siyasətçisi əlinə ilk imkan düşən kimi qisasını almağa çalışıb. Lakin belə cəhdlərlə iki dövlətin dostluq əlaqələrinə və tarixi bağlılıqlarına kölgə salmaq mümkün deyil.

Əksinə, "Xəzər beşliyi"nin sammitindən sonra Azərbaycan-Rusiya münasibətləri yeni mərhələyə keçmişdir. İki dövlət başçısının Soçidə və Bakıdakı son görüşləri, iqtisadi və humanitar sahədə Azərbaycanla Rusiya arasında imzalanan sazişlər, müqavilələr və memorandumlar onu deməyə əsas verir ki, hər iki dövlət qarşılıqlı dostluq və qardaşlıq əlaqələrinin inkişafında maraqlıdır. Rusiya-Ermənistan münasibətlərinə gəldikdə isə, Vladimir Putinin Bakıdan sonra İrəvana səfərinin təxirə salınması ermənilərin Rusiyaya aramsız olaraq sədaqət andı içərək Qərbə sürüşməsinə verilən layiqli qiymətdir. Bu da, təbii ki, Moskvada erməni maraqlarına xidmət edən, onlardan maliyyələşən müəyyən qüvvələrin hərəkətə keçməsinə səbəb olmalı idi. Lakin yenə də belə cəhdlər heç bir nəticə verməyəcək.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# *Səid MƏHƏMMƏDZADƏ:* "Qəzvin-Rəşt-Astara-Astara dəmir yolu iqtisadi əlaqələrin inkişafına təkan verəcək"

İran 4 il ərzində dəmir yollarının inkişafı üçün 5 milyard ABŞ dolları həcmində investisiya yatıracaq.

Bu sözləri AZƏRTAC-a müsahibəsində İranın Dövlət Dəmir Yolları İdarəsinin rəisi Səid Məhəmmədzadə deyib. Onun sözlərinə görə, İran, Azərbaycan və Rusiyanın dəmir yolları sistemlərini birləşdirəcək "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin əsasını təşkil edən Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti tam istifadəyə verildikdən sonra dəmir yolu ilə daşınan yüklərin həcmi 25 milyon tona çatacaq. Eyni zamanda nəqliyyat xərclərinə ödənilən vəsaitdən 250 milyon dollara qənaət ediləcək.

S.Məhəmmədzadə qeyd edib ki, Avropa İttifaqı ölkələri İrana 11 milyard dollar həcmində ixrac əməliyyatı həyata keçiriblər. İran isə Aİ ölkələrinə 10 milyard dollar həcmində ixrac əməliyyatı həyata keçirib. Ötən illərlə müqayisədə bu rəqəmlər artıb. Gələcəkdə də artacaq. Bu rəqəmlər yalnız İran ilə Aİ ölkələri arasındakı ixrac və idxal əməliyyatlarının həcmini göstərir. Cənub-Şərqi Asiya ölkələrinin də Avropa ölkələri ilə ticarət və iqtisadi əlaqələrini nəzərə alsaq, yükdaşımanın həcminin böyük miqyasda artacağını müşahidə edə bilərik. Bu yüklər isə İran, Azərbaycan və Rusiya ərazisindən keçməklə "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi" vasitəsilə daşınacaq.

Azərbaycanın "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin formalaşmasındakı fəaliyyətini yüksək qiymətləndirən S.Məhəmmədzadə bildirib ki, Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu beynəlxalq yükdaşımaları həyata keçirməklə yanaşı, iki ölkə arasındakı iqtisadi və ticarət əlaqələrinin də inkişafına böyük təkan verəcək.

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altındakı Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Qaraqaşlı, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.



## Azərbaycan Parlamenti - 100



# Cümhuriyyət parlamenti və ordu quruculuğu məsələləri

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin fəaliyyətinin çox səmərəli və dəyərli istiqamətlərindən birini də ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi və milli ordu quruculuğu məsələləri təşkil edirdi. Çünki Azərbaycan xalqı öz müstəqilliyini elan edəndə son dərəcə mürəkkəb bir hərbi-siyasi şəraitlə qarşılaşmışdı və ona görə də bu mürəkkəb şəraitdə ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi həyati əhəmiyyət kəsb edirdi. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən dərhal sonra milli qırğınlar törətməklə Bakıda hakimiyyəti qəsb etmiş Bakı Sovetinin bolşevik-daşnak qoşunları Bakı-Gəncə dəmir yolu xətti boyunca Ucara yaxınlaşmış, Bakı-Şamaxı-Göyçay şose yolu boyunca isə Qaraməryəmə yetişmişdilər. Bakı Sovetinin rəhbəri, Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş Stepan Şaumyan heç də gizlətmirdi ki, Gəncəni tezliklə ələ keçirmək və Azərbaycanın müstəqilliyini elə beşiyindəcə boğmaq onun əsas vəzifəsidir. Bu məqsədlə o öz ətrafına bolşevik Rusiyasının birbaşa yardımı ilə böyük sayda hərbi qüvvə də toplamışdı.



Azərbaycanın müstəqilliyinə qənim kəsilən yalnız Bakı Soveti və onun qoşunları deyildi. Ölkənin cənub bölgəsinə bir vaxtlar İranla sərhəddə yerləşdirilmiş çar Rusiyasının sərhəd briqadasının tör-töküntüləri, Qarabağa isə erməni daşnak qüvvələri nəzarət edirdi. Yəni Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi sərhədlər daxilində olan ərazilərin az qala yarıdan da çoxu yad qüvvələrin işğalı altında idi. Bu vəziyyətə son qoyulması və AXC-nin ərazi bütövlüyünün təmin edilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və bütünlükdə xalqın real qırğınlardan xilas edilməsi üçün milli hərbi qüvvələrə ehtiyac var idi. Ona görə də müstəqillik elan edildikdən sonra bu istiqamətdə mümkün addımların atılmasına başlandı.

Müstəqil milli ordunun təşkilatlandırılması istiqamətində görülməli olan ilk işlərdən birini isə bu ordunun hüquqi bazasının yaradılması, onun müvafiq qanunlarının hazırlanaraq qəbul olunması təşkil edirdi.

Milli Şuranın 1918-ci il 28 may tarixli qərarı ilə Nazirlər Şurasının ilk kabinəsinin tərkibində Hərbi Nazirlik də yaradılmış və Xosrov bəy Sultanov hərbi nazir vəzifəsinə təsdiq olunmuşdu. Amma Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən az sonra yaranmış tarixi şərait üzündən ilk qanunverici orqan olan Milli Şura buraxılmalı oldu və onun səlahiyyətləri hökumətə verildi. Ona görə Azərbaycanda ordu quruculuğu və ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi ilə bağlı ilk qərarlar və hüquqi aktlar da Azərbaycan hökuməti tərəfindən qəbul edildi. Məsələn, hökumətin 19 iyun 1918-ci il tarixli qərarı ilə ölkə ərazisində hərbi vəziyyət elan edildi, 26 iyun 1918-ci ildə Müsəlman korpusunun adı dəyişdirilərək Əlahiddə Azərbaycan Korpusu elan edildi, 3 iyul 1918-ci il tarixli qərarı ilə orduya çağırış yaşında dəyişiklik edildi, 15 iyul 1918-ci il tarixli qərarı ilə hərbi vəziyyət haqqında qanuna dəyişiklik edildi və s.

Milli Şuranın buraxılmasından sonra Nazirlər Şurasının elan edilmiş yeni tərkibində hərbi nazir vəzifəsi də artıq yox idi. Hökumətin qərarı ilə Azərbaycanda ordu təşkilatlandırılmasına rəhbərlik rəsmi dəvət əsasında hərbi yardım üçün Azərbaycana göndərilmiş məhdud saylı türk hərbi qüvvələri ilə milli hərbi qüvvələrin bazasında yaradılan Qafqaz İslam Ordusuna komandan təyin edilmiş Nuru paşaya həvalə olunmuşdu.

Məlumdur ki, Qafqaz İslam Ordusu tapşırılan vəzifələri uğurla yerinə yetirdi və Azərbaycan parlamenti bərpa olunan kimi onun elə ilk iclasında bu barədə hökumətin sədri Fətəli xan Xoyski millət vəkillərinə də məlumat verdi. Yəni Qafqaz İslam Ordusunun Azərbaycandakı fəaliyyətinə parlamentdə də münasibət bildirildi. F.Xoyski parlamentdəki müzakirələr zamanı Türkiyə hərbi qüvvələrinin Azərbaycana göstərdiyi köməyə belə qiymət verirdi: "Türkiyə ilə sülh əqdnaməsi tezlik ilə bağlandı. Bununla bərabər, hökumət qanun və qayda barəsində aciz idi. Zira heç bir tədbir qüvvəmiz və silahımız yox idi. Aşkar hökumət təşkil etməyə məcbur idik, lakin bunu da edə bilməz idik. Ona binaən bir qüvvəyə lüzum görürdük, sülh müzakirəsi vaxtı türklərdən bir qədər əsgər almaq iltizam edildi. Sülhnamədə bir fəsil var ki, Azərbaycan hər vaxt lazım görsə, müdafiə hüququ üçün Türkiyə bir qədər əsgər versin. Hökumət bu çarəyə təvəssül etdi. Özünüz bilirsiniz, Türkiyə öz borcunu yerinə yetirdi. Qonşumuzun kəməkliyi ilə mümkün olmayan bir çox şeylər çətinlik ilə yavaş-yavaş əldə edilirdi. Bu təklif ilə başqasına müraciət etmək mümkün deyil idi. İstəsək də, bir fayda olmaz idi. Türkiyə həmdinimiz, həmvətənimiz idi. Ona görə ondan kömək istədik".

Türkiyə hərbi qüvvələri Azərbaycanı tərk etdikdən sonra milli ordu quruculuğu bütünlüklə Azərbaycanın üzərinə düşdü və bu sahədə görülən işlərin bir istiqamətini də hərbi qanunvericiliyin yaradılması təşkil edirdi.

Ümumən ordu quruculuğu məsələləri ilə bağlı Azərbaycan parlamentinin fəaliyyətini bir neçə istiqamətə ayırmaq mümkündür. Bura ordu quruculuğu siyasətinin hazırlanması, ordu quruculuğu ilə bağlı qanunvericilik aktlarının qəbul edilməsi, hərbi sahədə beynəlxalq sazişlərin ratifikasiyası, hərbi büdcənin müəyyənləşdirilməsi, parlament üzvlərinin hərbi hissələrə səfərləri, hərbi vəziyyətin müzakirəsi və s. aid idi.

### Azərbaycan hökuməti bölgədə sülhün tərəfdarı idi

Parlamentin 26 dekabr 1918-ci il tarixli iclasında çıxış edərkən hökumətin sədri F.Xoyski cümhuriyyətin ordu quruculuğu ilə bağlı hökumətin fəaliyyətinin əsas istiqamətlərini açıqladı, bu prosesin məqsəd və vəzifələrini ortaya qoydu və onları millət vəkillərinin müzakirəsinə çıxardı. O vurğulayırdı ki, ölkənin suverenliyinin qorunması üçün milli müdafiə qüvvələri təşkil olunmalıdır və buna nail olunması üçün hökumət tərəfindən artıq lazımi tədbirlər həyata keçirilməkdədir. Yəni milli hərbi qüvvələrin yaradılmasında məqsəd ölkənin suverenliyinin qorunmasıdır. Onun sözlərinə görə, hətta qarşıya çıxan problemlərin sülh yolu ilə həlli mümkün olsa belə, müdafiə qüvvələrinin təşkilinə diqqət azaldılmamalıdır: "...Amma sülh ilə əmələ gətirmək o deyildir ki, hökumət özü üçün bir qüvvə hazırlamayacaq. Gərək hər bir dövlət daima özünü müdafiə etmək üçün qüvvə hazırlasın. Ona görə bizim də həm xarici düşmənlərimizə qarşı, bizim istiqlalımıza hücum edənlərə qarşı müdafiə edəcək bir qüvvəmiz olsun. Keçmişdə sabiq hökumət belə bir qüvvə təşkili üçün çalışmışdır".

Parlamentin 20 dekabr 1918-ci il tarixli iclasında isə F.Xoyski bildirirdi ki, Azərbaycan təcavüzkar siyasətin tərəfdarı deyildir və silahlı qüvvələri yaratmaqda da məqsəd heç də öz siyasətini təcavüzkarlıq yolu ilə həyata keçirmək deyil. Onun sözlərinə görə, Azərbaycan hökuməti bölgədə sülhün tərəfdarı idi. Ona görə də ordu yalnız Azərbaycana qarşı təcavüz olduğu təqdirdə silahlı mübarizəyə cəlb edilə bilərdi: "...Azərbaycan hökuməti nə keçmişdə, nə də indi ixtilaflı məsələləri silah gücü ilə həll etmək arzusunda olmamışdır. Hərgah belə məsələnin həlli üçün silaha sarılmaq lazım gəlmiş isə də, biz özümüz deyil, bizi məcbur etmişlər. ...Lazımi təqdirdə silaha sarılsaq, hamı bunu bilir ki, bizi belə vəsiləyə əl uzatmağa məcbur ediblər. Hökumət tərəfindən ərz edirəm ki, mümkün qədər zərərsiz, qansız, sülh yolu ilə hər bir məsələnin xitama yetişməsinə çalışmaq. Hökumət şimdi də belə müamilədə bulunacaqdır. Əks təqdirdə hökumət öz gücü ilə, qüvvəsi ilə Azərbaycan hökumətini hər bir təcavüzdən mühafizə edəcəkdir".

Ordu quruculuğu sahəsində hökumət tərəfindən müəyyənləşdirilən siyasət cümhuriyyət parlamentində təmsil olunan milli qüvvələr tərəfindən də qətiyyətlə müdafiə olunurdu. Belə milli qüvvələr müstəqil milli ordu quruculuğunu Azərbaycanın istiqlaliyyətinin qarantı kimi qəbul edir və bunu çıxış və bəyanatlarda da ifadə edirdilər. "Müsavat" partiyasının lideri M.Ə.Rəsulzadə parlamentin ilk iclaslarının birində verdiyi bəyanatında milli ordunun qurulmasını hökumətin və xalqın qarşısında dayanan başlıca vəzifələrdən biri kimi dəyərləndirirdi: "Əlbəttə, unutmamalıdır ki, hökumət qurmaq bir tərəfdən xalqın etimadını qazanmaqla olursa, digər tərəfdən dəxi ...qüvvəyə istinad etməkdə olur. Bunun üçün də əsgəri təşkilata son dərəcə əhəmiyyət verilməlidir. Dövlətin xaricən müdaxiləsi, daxilən müsaliməti bunu iqtiza edir".



"Əhrar" fraksiyasının parlamentdə verdiyi bəyanatda isə güclü və sağlam milli ordu milli istiqlalın birinci sütunu kimi dəyərləndirilirdi. Bəyanatda bildirilirdi ki, Azərbaycana sahib olmağın ən real yollarından biri milli ordunun yaradılmasıdır. Güclü ordu fraksiya tərəfindən millətin əmin-amanlıq içində tərəqqiyə doğru inkişafının əsası sayılırdı: "İstiqlaliyyəti-milliyyənin birinci sütunu əhd olunan sağlam və müdhiş bir orduya malik olmasıdır, ümumən məlumdur ki, yeni doğulmuş əsgəri təşkilatımız aqilanə bir surətdə icra edilməklə bərabər, bir çox təbii və ərazi fəlakətlərə uğrayıbdır. Buna görə camaatımız bu işdən mütəəffir olubdur. Əsgərlik vəzifəsi vətənin ən müqəddəs olduğunu nəzərdə tutub, yeni təşkilati əsgəriyyəyə mükəmməl bir əsgəri qanun düzüb qoşmalıdır. Əsgərlərin yeyəcəyinə, yatacağına, libasına və həkim-dərmanına böyük diqqət yetirilməlidir, dövlətliyə, fəqirə, kiçiyə təfavüt qoymamalıdır. Bu qədər bilməlidir ki, bizləri Azərbaycana sahib edəcək qüvvə bizim milli ordumuz olacaqdır. Ordu sağlam və möhkəm bir qüvvə təşkil edərsə, hökumət də ona istinadən iş görə bilər, millət də onun sayəsində tərəqqiyə üz tutub mədəni millətlər sırasına keçər".

Parlamentdə təmsil olunmuş bitərəf millət vəkilləri də qüvvətli ordunu istiqlaliyyətin dayağı hesab edir və onun qurulmasını hökumətin başlıca vəzifələrindən biri kimi qəbul edirdilər. Onların adından verilmiş bəyanatda deyilirdi: "Tez bir zamanda istiqlalımızı müdafiə edə biləcək qüvvətli ordu təşkil edilsin".

Milli ordunun tez bir zamanda formalaşmasını parlamentdə təmsil olunan digər milli qüvvələr də zəruri sayırdılar. Xüsusilə cümhuriyyət parlamentinin işə başladığı günlərdə Qarabağda vəziyyətin mürəkkəbləşməsi, quldur Andronikin bu bölgədə silahsız azərbaycanlı əhaliyə qarşı qırğınlara əl atması müdafiə qüvvələrinin tez bir zamanda formalaşdırılmasına ehtiyac yaradırdı. "İttihad" partiyasının lideri Qara bəy Qarabəyli parlamentdə çıxışı zamanı digər milli qüvvələr kimi, ordunun formalaşdırılmasını zəruri sayırdı və əlavə edirdi ki, mövcud tarixi şəraitdə hökumət bu məsələdə fəallıq göstərməli və müdafiə qüvvələrinin formalaşmasını nəzarət altında saxlamalıdır. Q.Qarabəylinin bu çıxışına münasibətini bildirən F.Xoyski ordu təşkili işlərinin məşhur general Səməd bəy Mehmandarova tapşırıldığını xatırlatdı. Hökumətin sədri onu da əlavə edirdi ki, ordu qurulması uzun sürən bir prosesdir və bunun üçün zəruri olan maliyyəni hökumət əsirgəmir.

### AXC-nin ordu quruculuğu prinsipi: ordu siyasətə qarışmamalıdır

Azərbaycan parlamentində təmsil olunmuş milli qüvvələr müxtəlif siyasi cərəyan və hərəkatların ordu quruculuğuna öz siyasi maraqları mövqeyindən müdaxilə etməsini, ordu daxilində öz siyasi məqsədlərinə dayaq axtarmalarını yolverilməz sayırdılar. Qırmızı bolşevizmin, denikinçi qüvvələrin ordu daxilində Azərbaycanın müstəqilliyinə əks olan təbliğatın gücləndirilməsinə, ordunun şəxsi heyətinin siyasi baxışlarına görə qruplaşmasına çalışdığı bir dövrdə bu məsələ xüsusi bir aktuallıq kəsb edirdi. Cümhuriyyət parlamenti və hökuməti ordu quruculuğunu müstəqil dövlət quruculuğunun tərkib hissəsi kimi dəyərləndirərək onun daxilində hər hansı bir siyasi qüvvənin ümumdövlət maraqlarına qarşı çıxmasını, ordunun şəxsi heyətinin siyasətə qarışmasını mümkünsüz hesab edirdi. Ordunun siyasətə qarışmaması prinsipi cümhuriyyətin ordu quruculuğunun mühüm prinsiplərindən biri idi və bütün səviyyələrdə bu prinsipə riayət olunmasına cəhd göstərilirdi. Hökumətin sədri F.Xoyski parlamentin ilk iclasındakı çıxışında onu da bildirirdi ki, qarşıda dayanan ilk və ən başlıca vəzifə Azərbaycanın müstəqilliyidir. Yəni ordu heç bir siyasi cərəyana qarışmadan və hökumətə hansı siyasi qüvvələrin rəhbərlik etməsindən asılı olmayaraq məhz bu ali vəzifəyə xidmət etməli idi. Parlamentin sədr müavini Həsən bəy Ağayev gənc zabitlərlə görüşündə də bu fikri xüsusi olaraq qabardırdı: "Siz bizim ordumuza qatılacaq dirilik suyu kimi onu canlandıracaqsınız. İnanıram ki, müəllimləriniz və komandirləriniz tərəfindən aşılanan Azərbaycanın müstəqilliyi ideyasından ruhlanaraq bu ideyanı bizim ordumuza da təlqin edəcəksiniz. Bu ideyadan kənarda bizim milli qurtuluşumuz yoxdur. Siyasətdən kənarda olmaqla, inanıram ki, siz hamınız yalnız gənc ordumuzun möhkəmləndirilməsinə və bununla da bizim gənc, müstəqil dövlətimizin möhkəmləndirilməsinə xidmət edəcəksiniz".

Cümhuriyyət parlamenti tərəfindən birmənalı şəkildə dəstəklənən ordunun siyasətdən kənarda qalması prinsipi Hərbi Nazirliyin rəhbərliyi tərəfindən də əsas götürülür və belə bir mövqe şəxsi heyətə də təlqin edilirdi. Hərbi nazir Səməd bəy Mehmandarov da cümhuriyyət parlamenti və hökuməti tərəfindən ordu quruculuğunda əsas götürülən bu prinsiplə bağlı bildirirdi ki, müxtəlif məqsədlərə yox, məhz Azərbaycanın müstəqilliyinə sadiq olan möhtəşəm ruhlu ordunun yaradılması hər bir hərbi qulluqçunun qarşısında dayanan ali məqsəddir. Ordunun baş qərargah rəisi general-leytenant Məmməd bəy Sulkeviç də hərbi hissə komandirlərindən tələb edirdi ki, hər cür siyasətbazlıqdan uzaq olsunlar və yalnız öz vəzifə borclarını icra etsinlər. Bu baxımdan onun Zaqatala piyada alayının komandirinə göndərdiyi teleqramın məzmunu da ordunun siyasətdən kənar olmasının əyani təsdiqi idi: "Hər vasitə ilə siyasətdən uzaq olun. Bunun üçün başqa orqanlar mövcuddur".

Ordu quruculuğunun möhkəm özül üzərində aparılması üçün milli maraqlara cavab verən hərbi qanunvericilik bazasının işlənib hazırlanması parlamentin bu sahədə fəaliyyətinin mühüm tərkib hissəsi idi. İstiqlaliyyətini yenicə əldə etmiş cümhuriyyətin milli dəyərlərə dayaqlanan hərbi qanunvericilik bazası ordu quruculuğu sahəsində əməli fəaliyyətin də səmərəliliyini şərtləndirən zəruri bir amil idi. Parlament öz fəaliyyətini bərpa edəndən sonra Nazirlər Şurası zəruri qanunların qəbul edilməsi üçün onun qarşısında qanunvericilik təşəbbüsü ilə çıxış edir və parlament də müvafiq qərarlar qəbul edirdi. Hökumətlə parlament arasında əlaqələrin tənzimlənməsi və hərbi qanunvericilik aktlarının hazırlanması üçün parlamentdə Müdafiəyi-milli (Milli müdafiə) komissiyası da yaradılmışdı. Müsavatçı Musa bəy Rəfiyev bu komissiyanın sədri, ittihadçı Qara bəy Qarabəyli və bitərəf Behbud bəy Cavanşir bu komissiyanın üzvləri seçilmişdilər. Müvafiq qanun layihələrini hazırlayıb parlamentin müzakirəsinə təqdim etməklə bərabər bu komissiyanın üzvləri, habelə parlamentin digər üzvləri ümumordu miqyaslı tədbirlərə də qatılırdılar. Bütün bunlar ölkənin müdafiəsinin möhkəmləndirilməsi ilə bağlı hökumətin fəaliyyəti barəsində geniş məlumatlar əldə etməyə imkan verirdi. Milli müdafiə komissiyasının bir çox iclasları müzakirə edilən məsələlərin xarakteri ilə bağlı qapalı şəkildə təşkil edilir və sonra onun yalnız nəticələri barəsində parlamentə müxtəsər məlumat verilirdi. Yaxud məqsədəuyğun bilinən qərar layihəsi təsdiqlənmək üçün parlamentin müzakirəsinə təqdim olunurdu.

Hərbi məsələlərin müzakirəsi zamanı yeri gəldikcə Nazirlər Şurasının sədri və hərbi nazir də parlamentə dəvət edilir, müzakirə olunan məsələlərlə bağlı onların fikir və mülahizələri, habelə görülmüş işlərlə bağlı məlumatları dinlənilirdi.

### 9 qanun layihəsi qəbul edildi

Cümhuriyyət parlamentinin mövcud olduğu dövrdə ordu quruculuğunun müxtəlif sahələri ilə bağlı 9 qanun layihəsi üzrə müvafiq qərarlar qəbul edilmişdi. Cümhuriyyət parlamentinin ordu quruculuğu ilə bağlı qəbul etdiyi ilk qanun layihəsi "Hərbi Nazirliyin ştatları haqqında" idi. Bu qərar parlamentin 25 fevral 1919-cu il tarixli iclasında qəbul edilmişdi. Bu qanun layihəsinin müzakirəsinə hərbi nazir Səməd bəy Mehmandarov da dəvət edilmişdi. O, parlament üzvləri qarşısında müzakirə olunan qanunun mahiyyəti haqqında məlumat vermiş və ümumən Hərbi Nazirliyin bərpa edildiyi vaxtdan bəri (1 noyabr 1918-ci il) ordunun təşkilatlandırılması sahəsində görülən işlərdən, mövcud çətinliklərin aradan qaldırılması sahəsində atılan addımlardan və əldə edilən nəticələrdən danışmışdı. Onun çıxışı parlament üzvləri tərəfindən hərarətli alqışlarla qarşılandı və bununla Hərbi Nazirlik tərəfindən ordu quruculuğu sahəsində görülən işlərə dəstək verildi. Qeyd edilməlidir ki, Səməd bəy Mehmandarovun rəhbərliyi altında milli ordunun yaradılması sahəsində aparılan işlər parlament üzvləri tərəfindən qətiyyətlə təqdir edilirdi və 1919-1920-ci illərdə təşkil edilmiş bir neçə hökumət kabinəsinin hamısının tərkibində Səməd bəy Mehmandarov hərbi nazir kimi təsdiq edilmişdi. Bununla onun hərbi nazir kimi səmərəli fəaliyyətinə parlament tərəfindən də davamlı dəstək verilmişdi. 1919-cu ilin yayında S.Mehmandarov özü də Lənkəran bölgəsindən cümhuriyyət parlamentinə üzv seçilmişdi.

Parlament tərəfindən ordu quruculuğu ilə bağlı qəbul edilmiş digər qanunlar bunlar idi: "Hərbi məhkəmələr haqqında" (14 aprel 1919-cu il), "Əxzi-əsgər şöbələrinin təşkili haqqında" (26 may 1919-cu il), "Azərbaycanda yaşayan həkimlərin həqiqi hərbi xidmətə çağırılması haqqında" (16 iyun 1919-cu il), "1915-ci ildə qəbul edilmiş Hərbi mükəlləfiyyət nizamnaməsinin 20-ci maddəsinə əlavələr edilməsi haqqında" (31 iyul 1919-cu il), "Əsgərlikdən azad olunanlardan əsgəri vergilərin ləğvi haqqında" (2 oktyabr 1919-cu il), "Bakı mövqe komandanlığının təşkili haqqında" (16 oktyabr 1919-cu il), "Gəncə hərbi zavodunun ştatlarının və smetasının təsdiqi haqqında" (23 fevral 1920-ci il), "Şuşa şəhərində hərbi feldşer məktəbi açmaq haqqında" (26 aprel 1920-ci il).

Cümhuriyyət parlamentinin ordu quruculuğu ilə bağlı qəbul etdiyi mühüm qərarlardan biri hərbi büdcənin ayrılması ilə bağlı idi. Bu prosesin uğurla aparılması üçün parlament 1919-cu ildə ordunun formalaşdırılmasına 399,4 milyon rubl vəsait ayrılması haqqında qərar qəbul etmişdi. Həmin vəsait dövlət büdcəsinin 27,7 faizini təşkil edirdi. Məhdud imkanlar olmasına baxmayaraq, ordu quruculuğuna lazımi vəsaitin ayrılması ilə bağlı Sosialistlər fraksiyasının sədri Aslan bəy Səfikürdski parlamentdəki çıxışı zamanı öz mövqeyini belə açıqlayırdı: "Əsgəri məmurlara lazımi miqdarda məvacib verilməlidir. Artıq da vermək lazım gəlsə, verilməlidir. Veriləcək də. ...Sosialistlər fraksiyası tərəfindən deyirəm ki, namuslu, qeyrətli, şücaətli əsgər və zabitlərimizdən ötrü hər nə lazım olsa, verəcəyik".

Ordu quruculuğunun və ölkənin müdafiəsinin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan hökuməti ilə digər dövlətlər arasında imzalanmış sazişlər də parlament tərəfindən ratifikasiya olunurdu. Bu baxımdan Azərbaycan hökuməti ilə Gürcüstan hökuməti arasında 1919-cu il iyun ayının 16-da imzalanmış hərbi saziş xarakterikdir. Cümhuriyyət parlamenti belə bir sazişin imzalanmasını əhəmiyyətli bir hadisə kimi dəstəkləmiş və qısa müddətdən sonra, yəni həmin ilin iyun ayının 27-də keçirilən fövqəladə iclasda bu sazişi ratifikasiya etmişdi. Məsələ ilə bağlı parlamentdə geniş müzakirə aparılmış və cümhuriyyət ordusunun möhkəmləndirilməsi üçün hökumət tərəfindən atılan addımlar təqdirlə qarşılanmışdı.

Ölkədə mövcud olan hərbi-siyasi durumun müzakirəsi, bu sahədə hökumətin fəaliyyətinə nəzarət edilməsi və hökumətə müvafiq kömək göstərilməsi məsələsi də parlamentin işində böyük yer tuturdu. Azərbaycanın daxilində və ətrafında yaranmış təhlükəli vəziyyət parlament üzvlərindən bu məsələyə geniş yer ayrılmasını tələb edirdi. Bir tərəfdən çar Rusiyasının sərhədlərini bərpa etməyə çalışan denikinçi qüvvələrin Azərbaycanda yaratdığı hərbi təhlükə, bir tərəfdən Ermənistan hökumətinin Azərbaycanın ərazi bütövlüyünə qarşı istiqamətlənmuş təcavüzkar fəaliyyəti, bir tərəfdən də bolşevizm təhlükəsi dəfələrlə parlamentin iclaslarında ətraflı şəkildə müzakirə olunmuş və bu təhlükələrin qarşısının alınması üçün hökumət qarşısında müvafiq tapşırıqlar qoyulmuşdu. Konkret olaraq parlamentin 6 may və 5 iyun 1919-cu il tarixli iclaslarında Azərbaycanın şimal sərhədlərində yaranmış Denikin təhlükəsi, 4 sentyabr 1919-cu il tarixli iclasında Lənkəran bölgəsində vəziyyət və bu bölgənin milli ordu hissələri tərəfindən cümhuriyyət hökumətinin nəzarəti altına gətirilməsi, 22 dekabr 1918-ci il tarixli, 7 iyul, 8 iyul 1919-cu il tarixli və 1 aprel 1920-ci il tarixli iclaslarında Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış vəziyyət və bu vəziyyətin aradan qaldırılması yolları müzakirə edilmişdi. Əslində, parlamentin iclaslarının çoxunda mövcud hərbi-siyasi şəraitlə bağlı fikir mübadiləsinə rast gəlmək mümkündür. Parlamentin iclaslarında sadəcə olaraq gərgin hərbi-siyasi şərait müzakirə olunmurdu, həm də bu vəziyyətdən çıxmaq üçün konkret vəzifələr müəyyənləşdirilirdi.

1919-cu ilin yayında Azərbaycana qarşı Denikin təhlükəsi xeyli güclənəndə Azərbaycan parlamentinin qəbul etdiyi qərarlardan biri Bakı şəhərində könüllü müdafiə dəstələrinin yaradılması oldu. Nəzərdə tutulmuşdu ki, milli hərbi qüvvələr hərbi təhlükənin qarşısının alınmasına cəlb edildiyi halda Bakı şəhərində asayişin təmin edilməsini bu könüllü dəstələr öz üzərinə götürə biləcəkdir. Bu könüllü dəstələrin rəhbərliyinin maaşları da parlamentin büdcəsi hesabına ödənilməli idi.

1919-cu il fevral ayının 12-də parlamentin qərarı ilə parlament mühafizə dəstəsi də yaradıldı. Bu dəstə xüsusi olaraq parlamentin mühafizəsi üçün yaradılsa da, məlumdur ki, 1920-ci ilin mart-aprelində Qarabağda Ermənistanın təcavüzünə qarşı aparılan mübarizədə milli ordu qüvvələri ilə bərabər həmin döyüşlərdə iştirak edirdi.

* * *

Nəhayət, ordu quruculuğu və ölkənin müdafiəsinin təşkili ilə bağlı cümhuriyyət parlamentinin dəyərli təcrübələrindən birini də millət vəkillərinin hərbi hissələrə səfərləri təşkil edirdi. Məsələn, məlumdur ki, 1918-ci ilin sonu və 1919-cu ilin ilk günlərində Ağdam ətrafında yerləşdirilmiş milli hərbi bölmələrin bəzilərində intizamsızlıq və komandanlığa tabe olmaqdan imtina halları baş verdikdə həmin bölgəyə bir sıra millət vəkilləri də getmişdi. Həmin halın qarşısının qətiyyətlə alınmasında bu millət vəkillərinin məlumatları da nəzərə alınmışdı.

1919-cu ilin əvvəllərində parlamentin sədr müavini Həsən bəy Ağayev Gəncədə yerləşən hərbi hissələrə baxış keçirmiş və gördüklərindən razı qalmışdı. 1920-ci ilin əvvəllərindən başlayaraq Qarabağda hərbi-siyasi vəziyyət pisləşəndə bu bölgəyə ilk gələn rəsmilərdən biri də parlament üzvü Cəlil Sultanov olmuşdu. Bu səfərlər ordu quruculuğu sahəsində görülən işləri yaxından müşahidə etməyə və bu prosesin gücləndirilməsi üçün lazımi qərarların qəbul edilməsinə kömək edirdi.

Cümhuriyyətin mövcudluğu dövründə dövlət quruculuğu sahəsində Azərbaycan hökumətinin əldə etdiyi böyük uğurlardan biri, şübhəsiz ki, güclü milli ordunun yaradılması idi və belə bir ordunun yaradılmasında Azərbaycan parlamenti də üzərinə düşən vəzifəni şərəflə yerinə yetirmişdi.

***Mehman SÜLEYMANOV,***
***tarix elmləri doktoru,***
***ehtiyatda olan polkovnik***

AzerGold QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# "AzerGold" QSC yazı müsabiqəsində fərqlənən tələbələri mükafatlandırıb

"AzerGold" QSC-nin inzibati binasında "Mənim təcrübə hekayəm" adlı yazı müsabiqəsinin yekunlarına həsr olunan tədbir baş tutub. Cəmiyyətin mərkəzi ofisində və Çovdar filiz emalı sahəsində istehsalat təcrübəsi keçən tələbələr arasında keçirilən sayca ikinci yazı müsabiqəsində ADA və Azərbaycan Dövlət Neft və Sənaye Universitetini (ADNSU) təmsil edən tələbələr iştirak edərək, öz yazılarında istehsalat təcrübəsi haqqında təəssüratlarından və topladıqları biliklərdən ətraflı söz açıblar.



Yazıların bədii və ədəbi keyfiyyəti, informasiya dolğunluğu və digər meyarlar əsasında qiymətləndirilməsi nəticəsində birinci yeri ADNSU-nun geologiya fakültəsində təhsil alan İsmayıl İsmayılov, ikinci yeri ADA-nın iqtisadiyyat fakültəsində təhsil alan Saleh Salehov, üçüncü yeri isə ADA-nın Biznesin idarə olunması fakültəsində təhsil alan Kəmalə Əfəndiyeva tutub. Müsabiqənin qalibləri pul mükafatları və müvafiq sertifikatlarla təltif olunublar.

Tədbirdə iştirak edən tələbələr keçdikləri təcrübənin onların karyerasında böyük rol oynayacağını qeyd edərək yaradılan bu imkana görə "AzerGold" QSC-yə öz minnətdarlıqlarını bildiriblər. Öz növbəsində, "AzerGold" QSC-nin mütəxəssisləri tələbələrin peşə biliklərini və təcrübə zamanı davranışlarını yüksək qiymətləndirərək onlara gələcək əmək fəaliyyətlərində uğurlar arzu ediblər. "AzerGold" QSC əlvan metal sənayesinin davamlı və dayanıqlı inkişafını təmin etmək üçün kadr potensialının möhkəmləndirilməsinə böyük önəm verir. Bu məqsədlə həyata keçirilən tədbirlər çərçivəsində cəmiyyət Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti və ADA ilə geniş əməkdaşlıq edir. Qurulan əməkdaşlıq çərçivəsində artıq 60 tələbə "AzerGold" QSC-də istehsalat təcrübəsi keçib.

*"Azərbaycan"*

Bu barədə düşünək

# "TELEFONUNLA YOX, MƏNİMLƏ OYNA"

## Övladlar valideynlərindən şikayətçidir, psixoloqlar da həyəcan təbili çalırlar

**"Atam evə gələn kimi yemək yeyib oturur divanda, başlayır telefonla məşğul olmağa. Elə anam da onun kimi. İşlərini bitirəndən sonra telefona sarılırlar. Onların həmişə telefonla vaxt keçirmələrini xoşlamıram. Bəs mən kiminlə oynayım?! Axı mən də onlarla oynamaq istəyirəm..."**

**Bu sözləri qonşuluqda yaşayan 6 yaşlı Nihat Əliyev deyir. Evdə ona az diqqət ayrılmasından şikayətlənən bu balaca əslində, ölkəmizdəki minlərlə həmyaşıdının fikirlərini ifadə edir.**



### Qlobal problemə çevrilən telefon aludəliyi

Ancaq görünən odur ki, bu problemin miqyası sərhədləri çoxdan aşıb və indi qlobal səciyyə daşıyır. Belə ki, bu yaxınlarda Almaniyanın Hamburq şəhərində uşaqlar valideynlərinə etiraz aksiyası təşkil ediblər. 7 yaşlı Emil Rustigenin dəvəti ilə Feld küçəsində bir yerə toplaşan uşaqlar valideynləri ilə birlikdə bələdiyyəyə qədər yürüş ediblər. Əllərində isə ana-atalarına xəbərdarlıq kimi yönəlmiş "Mənimlə oyna, mobil telefonunla deyil" plakatları olub.

Valideynlərin mobil telefon aludəliyi səbəbindən uşaqlarına vaxt ayırmadıqlarına diqqət çəkmək məqsədilə təşkil edilən bu yürüş internet resursları və sosial şəbəkələr vasitəsilə geniş yayılaraq dünyanın çox ölkəsində dəstək qazanıb.

### Oğlum telefonla məşğul olmağımı sevmir

Bu problemin mahiyyətini əslində valideynlər də dərk edirlər. İki yaşlı oğul anası Səma Mustafayeva da evdə bacardığı qədər telefondan uzaq olub övladına diqqət ayırmağa üstünlük verdiyini deyir: "İşdən sonra vacib olmayanda telefonu əlimə almıram. Çünki oğlum telefonla məşğul olmağımı sevmir. Telefon beş dəqiqədən artıq əlimdə olanda dərhal götürüb kənara qoyur. İşdən sonra əsasən oğlumla məşğul oluram. Əsasən həyətdə oynayırıq. Onun üçün telefona maraqlı oyunlar yükləməmişəm. Bir dəfə olsun telefonda cizgi filmi izləməsinə imkan verməmişəm. Düşünürəm ki, hər bir valideynin borcu telefona sərf etdiyi zamanı övladı ilə keçirməkdir. Uşaq valideyni ilə ünsiyyətdən doyanda yatmağa da könüllü gedir. Bu ünsiyyət az olanda uşaq aqressiv və nadinc olur".

### Uşaqlar özlərini tərk edilmiş, tənha hiss edirlər

Unutmayaq ki, valideynlər də uşaqları kimi, bəlkə də onlardan daha artıq smartfon və planşet cazibəsinə tabedirlər. Diqqət doğuran bu məsələ ilə bağlı ABŞ-da maraqlı bir araşdırma aparılıb. Tədqiqata qatılan 13-17 yaş arası minə yaxın uşaqdan təxminən 33 faizə qədəri valideynlərinin öz mobil vasitələrindən imtina edib onlara diqqət ayırmalarını arzu etdiklərini dilə gətirib. Nəticələr göstərir ki, texnoloji vasitələr sosial qarşılıqlı əlaqələrə təsir edir və çox vaxt uşağın davranışında problemlər yaranır. Valideynin telefonu ilə daha çox zaman keçirməsi nəticəsində uşaqlar onlara diqqət, qayğı göstərilmədiyini düşünür, özlərini tərk edilmiş, tənha hiss edirlər. Araşdırma göstərir ki, əgər valideyn uşağına göz təmasına girib cavab vermirsə, bu halda uşaq fiziki və hormonal stresli halda reaksiya vermiş olur.

### Telefonu yox, övladınızı seçin

Valideynlərin sosial şəbəkələrdə, telefonla daha çox vaxt keçirməsinin həddindən artıq mənfi təsirlərinin olduğunu təsdiqləyən "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin psixoloqu Anara Quliyeva deyir ki, uşaq psixologiyası ağ vərəqdir və ora necə yazmağı başladınsa, proses o cür də davam edəcək.

Psixoloqun sözlərinə görə, uşağın ümumi inkişaf dövrləri var və hər birinə uyğun tələbatlar mövcuddur: "Həmin tələbatları ödəməlisən ki, uşaq hər cəhətdən sağlam böyüsün. Uşaq dünyaya göz açanda ilk təməl duyğusu emosional ünsiyyət olur. İstəyir ki, valideyn onu əzizləsin, sığallasın, güvən versin".

Valideynlər uşağın başı qarışan kimi tez telefonla vaxt keçirməyə çalışırlar. Bunun uşaq üzərində təsiri olmadığını düşünürlər. Uşaqlar valideyn diqqəti görməyəndə yaxşı davranmırlar. Valideynin isə bu vəziyyətdə telefona daha çox yönəlməsi onun daha da pis davranış sərgiləməsinə səbəb olur. Mobil telefon və digər rəqəmsal texnoloji vasitələr uşaq-valideyn əlaqələrində mənfi təsirlərə gətirib çıxarır ki, bu da uşağın inkişafı və sağlamlığında əhəmiyyətli dərəcədə təzahür edir. Belə ki, uşaqlar hiperaktiv, asanlıqla əsəbiləşən və içində çox qəzəbi olan biri kimi yetişirlər.

Psixoloq isə xatırladır ki, uşaq oynayanda, yeyəndə belə valideynin nə etdiyinə diqqət yetirir və şəxsiyyət kimi formalaşma prosesində valideynin davranışını mənimsəyir. Uşaq mütəmadi olaraq valideynlə ünsiyyətdədir, ona nələrsə göstərməyə çalışır, amma valideyn sürətli olaraq nə iləsə məşğuldur. Bunun mənfi nəticələri olur.

### Mürəkkəb problemin sadə həlli var

Uşaq görür ki, özbaşına yatır, özbaşına yemək yeyir, özbaşına oynayır. Nəticədə bütün bunlar onda valideynlərə qarşı aqressiya yaradır. Uşaq yetərincə diqqət görmədikdə valideynin xoşuna gəlməyən hərəkəti etməyə meyilli olur. Uşağın sualına cavab verilməsə, oyun oynayanda tək qalırsa, o halda valideynin hər tapşırığına mənfi reaksiya verəcək. Hətta yeməkdən imtina edəcək. Nəticədə, uşaqda davranış pozuntusu ortaya çıxacaq və getdikcə bu, xarakter kimi formalaşmağa başlayacaq. Uşaq gördüyü işi yarımçıq qoyacaq, tapşırıqlara əməl etməyəcək, normal gündəlik qayğılarından uzaqlaşacaq.

Psixoloq Anara Quliyevanın fikrincə, qarşılıqlı anlaşılmazlıq uşağın davranış pozuntusuna gətirib çıxarır: "Bəzən valideynlər rahatlıq tapmaq baxımından uşağı telefona yönəldir. Araşdırmalara görə, 4-13 yaşlarındakı uşaqların yüzdə əllisinin öz mobil telefonu var. Bu isə uşaqda hətta zəka problemlərinə yol açır. Ümumiyyətlə, telefon istifadəsi insan psixologiyasına mənfi təsir edir. Bu səbəbdən də yuxuya getməzdən iki saat əvvəl telefon istifadəsini dayandırmaq lazımdır. Telefona baxıb sonra yatmağa çalışsaq, əslində, beynimiz yatmış olmur və səhər saat 7-də oyananda beynimizin yuxu ehtiyatı iki saat yarımçıq qalır. Nəticədə, insan özünü yorğun, əzgin hiss edir. Belə valideynlər də övladlarına qarşı aqressiv davranır. Bu cür problemlər zəncirvarı şəkildə özünü göstərməyə başlayır".

Bu bir həqiqətdir ki, müasir e-lektrotexnologiyanın davamlı inkişafı insanlarda böyük maraq yaradır və bu da kütləvi xarakter aldıqda hansısa problemlərə yol açmış olur. Acı həqiqət olsa da, etiraf etməliyik ki, telefon aludəliyi ilə bağlı problemlərlə qarşıdakı dövrdə hələ daha geniş miqyasda rastlaşacağıq.

Bu problem nə qədər mürəkkəb olsa da, həlli çox sadədir: telefonla yox, övladınızla vaxt keçirin...

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***



# 5 yaşlı məktəblilər

## Gələn il I sinfə gedəcək şagirdlərin artıq 75 faizi məktəbəhazırlıq qruplarına cəlb olunublar

**Oktyabrın 1-dən dövlət ümumtəhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarında məşğələlərə start verilib. Qruplar ölkənin bütün şəhər və rayonlarında, müvafiq maddi-texniki bazası və kadr potensialı olan məktəblərdə təşkil olunur. Dövlət ümumtəhsil məktəblərində yaradılmış məktəbəhazırlıq qruplarına 5 yaşı həmin il tamam olmuş uşaqlar qəbul olunurlar.**











### "Anam da mənimlə oturub dərs oxusun..."

Bakı şəhəri 20 nömrəli məktəb-liseyində azyaşlıların məktəblə ilk tanışlıq prosesini izləyirik...

Partanın arxasından boylanan 5 yaşlı balacalar, hələ məktəbin nə olduğunu anlamırlar belə... Hələ valideynlərinin aldığı rəngli karandaşlar, dəftərlər, çantalardır onların sevincinə, marağına səbəb olan...

- Bax, mənim çantamın rəngi daha qəşəngdir...

- Nə olsun, mənim də çoxlu karandaşlarım var...

Dərs ləvazimatlarını heyranlıqla süzür, bir-birinə göstərirlər...

"Anam da mənimlə oturub dərs oxusun" - ağlamsınaraq deyir, pəncərənin qarşısındakı partada sıxılaraq oturmuş balaca oğlan... Toppuş əlləri ilə yanında dayanmış anasının ətəyindən bərk-bərk yapışaraq gedəcəyindən qorxur...

Fidan partanın üzərindəki kitabları həvəslə bir-bir göstərərək, məktəbi çox sevdiyini, böyüyəndə həkim olmaq istədiyini deyir, yanında oturan qızcığaz isə əlavə edir ki, o, müəllimə olacaq...

Çalınan zəngin səsi kiçik məktəbliləri bir anlıq da olsa, sakitləşdirir, sinfə daxil olan müəlimə uşaqları salamlayaraq tanışlığa və gələcək həyatlarının təməlini qoyacaq ilk dərsə başlayır...

### Uşaqlar məktəbə sevə-sevə getməlidirlər

Məktəbəhazırlıq qrupunun müəllimi Gözəl Quliyeva bildirir ki, uşaqların əksəriyyətinin müəyyən mənada məktəb haqqında təsəvvürü olsa da, bəzilərinin məktəbə uyğunlaşması bir az çətin olur. Bunlar isə valideynlərinə çox bağlı olan uşaqlardır: "Bu zaman məktəbin psixoloqunun yardımı ilə onları məktəbə öyrəşdirməyə çalışırıq. Burada müəllimin üzərinə böyük iş düşür və o, hər bir uşaqla öz dilində danışmağı bacarmalıdır. Əsas odur ki, uşağın qəlbinə yol tapasan və o, məktəbə sevə-sevə gəlsin. Belə olanda bizə aid olan prosesi daha rahat həyata keçiririk".

### Hazırlıqdan 1-ci sinfə gələn uşaqlar məktəbə daha tez uyğunlaşırlar

Müəllimə söyləyir ki, hazırlıq qruplarında dərslər yarım saat olsa da, uşaqlar parta arxasında 15-20 dəqiqə oturur. Ara müddətdə də idman, musiqi fasilələri də verilir. Həmçinin bu uşaqların ev tapşırığı olmur: "Yazıya yox, əsas idrak, təfəkkür, nitq inkişafına önəm verilir. Təcrübəmə əsaslanaraq tərəfdarı deyiləm ki, qruplarda 1-ci sinif kimi dərslər tapşırılsın, yazı yazdırılsın. Uşaqlara qiymət vermir, sadəcə, sözlərlə, hərəkətlərlə rəğbətləndiririk, nə isə xırda bir hədiyyələrlə onların məktəbə maraqlarını, istəklərini artırırıq. İndi elə bir sistem qurulub ki, hazırlıqdan 1-ci sinfə gedən uşaqların əksəriyyəti məktəbə tam hazır vəziyyətdə gəlirlər və bunun böyük önəmi var, onlar verilən tapşırığı daha rahat yerinə yetirirlər. Bu prosesdən keçməyən uşaqlar isə məktəbə nisbətən gec uyğunlaşır, oturmaq qaydasını, qələm tutmağı, hansı nitq etiketindən istifadə etməyi bilmir, məktəb nizamnaməsi ilə tanış deyil".

Valideynlərin uşaqları özlərindən çox asılı etməmələrini arzulayan Gözəl Quliyevanın fikrincə, uşaqlara sərbəstlik vermək lazımdır ki, onlar özlərinə aid olan hər şeyi özləri etməlidir: "Düzdür, çanta ağırdır və valideyn ona kömək edir, amma kitabı da çıxarırlar, suyunu da açıb süzürlər, imkan vermirlər ki, uşaq bu xırdalıqları özü etsin. Belə olanda həmin uşaq həyatda müstəqil ola bilmir, həmişə kimdənsə asılı vəziyyətdə qalır".

### İbtidai sinif müəllimləri üçün ixtisasartırma təlimləri keçirilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən verilən məlumata əsasən, 2018-2019-cu tədris ilində qurumun tabeliyindəki 264 ümumi təhsil müəssisəsində 940 məktəbəhazırlıq qrupu fəaliyyətə başlayıb. Hazırlıq qruplarında gün ərzində 3 məşğələ və həftədə 4 gün olmaqla, ümumilikdə 12 məşğələ keçirilir. Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə müəyyənləşdirilib. Qruplarda "Ətraf aləmlə tanışlıq", "Savad təliminə hazırlıq və nitq inkişafı", "Bədii təfəkkürün inkişafı", "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət", "Musiqi", "Fiziki mədəniyyət" məşğələləri aparılır. Zehni gərginlik tələb edən məşğələlərdə bir qayda olaraq, 3 idman dəqiqəsi keçirilir.

Məktəbəhazırlıq qruplarında məşğələlərin aparılması əsasən bu sahədə davamlı iş təcrübəsi olan, diaqnostik qiymətləndirmədə yüksək nəticə göstərən, həmin tədris ilində IV sinifdə dərs deyəcək və növbəti dərs ilində I sinfi qəbul edəcək ibtidai sinif müəllimlərinə həvalə olunur. 2018-2019-cu tədris ilində Bakı şəhərindəki ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında dərs deyəcək ibtidai sinif müəllimləri üçün ixtisasartırma təlimləri keçirilib. Təlimlərin əsas məqsədi uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixoloji inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin etmək üçün məktəbəhazırlıq qruplarında məşğələlər keçəcək müəllimlərdə zəruri bacarıqlar formalaşdırmaqdan ibarətdir. Təlimlərdə paytaxt üzrə məktəbəhazırlıq qruplarında məşğələ keçəcək 805 ibtidai sinif müəllimi iştirak edib.

### Cari dərs ilində 75 faiz uşağın məktəbəhazırlıq qruplarına cəlb olunması üçün imkan yaradılıb

Dövlət ümumi təhsil müəssisələrində məktəbəhazırlıq qrupları 2015-2016-cı tədris ilindən fəaliyyətə başlayıb. Məktəbəhazırlıq prosesinə elektron qeydiyyat isə 2 ildir tətbiq edilir. Bu isə vətəndaşların rahatlığı və subyektiv amillərin aradan qaldırılması baxımından mühüm əhəmiyyətə malikdir.

Azərbaycanda 2015-2016-cı tədris ilində məktəbəhazırlıq proqramı bütün 5 yaşlıların 24 faizini əhatə etdiyi halda, 2016-2017-ci dərs ilində 55, 2017-2018-ci tədris ilində 65, 2018-2019-cu dərs ilində 75 faiz həddində 5 yaşlı uşağın məktəbəhazırlıq qruplarındakı məşğələlərə cəlb olunması üçün imkan yaradılıb. 2019-2020-ci tədris ilində isə bu göstəricinin 90 faizə çatdırılması nəzərdə tutulur. Bu, məktəbəhazırlığa cəlb olunma səviyyəsinin yüksəldilməsi, uşaqların birinci sinfə daha hazırlıqlı başlamasının təmin olunması və tədris göstəricilərinin yaxşılaşdırılması məqsədlərinə xidmət edir.

Sözügedən qrupların yaradılmasında məqsəd 5 yaşlı uşaqların məktəb təliminə hazırlığı ilə əlaqədar psixoloji dayanıqlığını artırmaq, əhatə olunduqları aləmə və təhsil mühitinə uyğunlaşdırmaq, onların ünsiyyət və birgə fəaliyyət bacarıqlarına yiyələnməsini təmin etməkdən ibarətdir. Beş yaşlı uşaqların məktəbə hazırlığı üçün olduqca mühüm əhəmiyyət kəsb edən məktəbəhazırlıq məşğələlərini keçməyən uşaqların I sinifdə təbii ki, məktəbəhazırlıq qruplarından gəlmiş uşaqlarla müqayisədə əsasən geri qalması müşahidə olunur. Odur ki, valideynlər övladlarının tədris nailiyyətlərinin daha yüksək olmasını düşünərək, onların məktəbəhazırlıq qruplarına cəlb olunmasına maraq göstərməlidirlər.

### Uşaqlara ev tapşırığı verilmir

Dövlət ümumi təhsil məktəblərində yaradılan məktəbəhazırlıq qruplarında dərs ili iki yarımilə bölünür. I yarımil: 1 oktyabr - 26 yanvar; II yarımil: 1 fevral - 31 may.

Məktəbəhazırlıq qruplarında xüsusi qiymətləndirmə tətbiq olunmur. Hər gün uşaqlar şifahi formada qiymətləndirilir və bu barədə valideynlərə məlumat verilir. Burada təhsil alan uşaqlar üçün ev tapşırığı nəzərdə tutulmur.

Qəsəbə və kəndlərdə yerləşən ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarına ən azı 10 uşaq, şəhərlərdə yerləşən ümumtəhsil məktəbləri üçün isə ən azı 15 uşaq müəyyən olunur. Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qrupunda uşaqların sayının 30 nəfərdən artıq olmasına yol verilmir.

***Yasəmən MUSAYEVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***








# Kaskadyorluq

## çoxlarının həsəd apardığı sənət növüdür



### *İlk dəfə kaskadyorlar festivalı Şuşada Cıdır düzündə keçirilib*

Elə sənət növü var ki, onu hər həvəs və maraq göstərən öyrənə, sirlərinə bələd ola bilmir. Beləliklə, həmin sənət çətinlikləri ilə çoxları üçün əlçatmaz olur. Haqqında söhbət açmaq istədiyimiz sənətin də həsrətini çəkənlər az olmayıb. Lakin onun çətinlikləri həmin həsrəti sadəcə həsədə çevirib. Söhbət incəsənətin bir növü olan, daha çox bu sahədə özünün unikallığı ilə seçilən kaskadyorluqdan gedir. Bəlkə də yeganə sənət növüdür ki, onun fanatları daha çoxdur. Bəziləri onu sırf idman növü kimi qəbul etsə də, konkret olaraq kinoda özünü daha çox göstərdiyi üçün incəsənətə aiddir.



Kino sənətinin ekran ömrünün uzun olması yalnız onun mövzusu ilə bağlı deyil. Təbii ki, aktyor oyunu, rejissor işi, rəssamın tərtibatı əsas komponentlərdir. Bəzi kinolarda daha bir sənətdən istifadə edilir ki, o da kaskadyorluqdur. O, əslində, kinonun görünməyən tərəfindən tamaşaçını filmi sona kimi həyəcanla izlədən bir vasitədir. Filmlərdə aktyorlara və aktrisalara dublyor olan kaskadyorlara dünya kinosunda daha çox yer verilməsi isə tamamilə başqa bir mövzudur.

Peşəkar aktyor-kaskadyorlar filmlərdə həyəcan doğuran səhnələrlə tamaşaçılara müxtəlif ovqat yaşadırlar ki, bu da ekran əsərinin uzunömürlülüyünə xidmət edir. Hər anı təhlükəli olan kaskadyorların uzun illər məktəbi olmayıb. Ona görə kaskadyorluğun tarixi də o qədər dərin deyil. Ölkəmizdə ilk azərbaycanlı kaskadyorların üzə çıxması ötən əsrin 80-ci illərindən başlayıb. Həmin dövrə qədər çəkilmiş Azərbaycan filmlərində iştirak edən kaskadyorlar isə əsasən keçmiş sovetlərin müttəfiq respublikalarından dəvət ediliblər.

Kaskadyorluğu, yuxarıda qeyd etdiyimiz kimi, idmanın bir növü olan atletika ilə məşğul olan gənclərin həvəs göstərdiyi sahə kimi də qəbul edirlər. Lakin çoxları hələ də onun sənət, peşə olduğunu bilmir. Yaxud kaskadyorluq idman oyunudurmu, yoxsa aktyorluq sənətinə aiddir? "Kaskad" sözündən yaradılmış kaskadyorluq fransız dilində "cascade" - şəlalə, italyan dilində isə "cascata", yəni yıxılma mənasını daşıyır. Filmlərdə işlədilən kaskadyorluq sözü əsasən "yıxılma" və "düşmə" təsəvvürünü yaradır. Burada həqiqi yıxılmadan söhbət gedə bilməz. Yəni kaskadyorluq həqiqi yıxılmanın oxşadılmasına, bənzədilməsinə deyilir. Ona görə ki, filmlərdə görünən yıxılmalar həqiqətə oxşasa da, yalançıdır. Əvvəlcədən aparılan ciddi hazırlıqlarla o, tam həqiqilikdən uzaqlaşdırılır. Bir neçə illik fiziki məşqlərdən və psixoloji hazırlıqlardan sonra kaskadyor həmin yıxılmanı həyata keçirir. O da gizli deyil ki, kaskadyor nə qədər peşəkar olsa da, zədələnməmək üçün müxtəlif üsullarla sığortalanır. Buna baxmayaraq, yenə də zədə alanlar az olmayıb.

Azərbaycanda kaskadyorluq məktəbinin yetişdirmələri arasında dünyanın tanıdığı bir sənətkarımız var. O, milli kaskadyorluq məktəbinin formalaşdırılmasında xüsusi əməyi olan, Azərbaycan Kaskadyorlar Assosiasiyasının rəhbəri, kaskadyor-aktyor Əli Məmmədovdur. Təəssüfedici faktdır ki, bu gün ölkəmizdə peşəkar kaskadyorluqla məşğul olanların sayı azdır, hətta barmaqla sayılacaq qədərdir. Bunun da, sözsüz ki, öz səbəbləri var.

Ölkəmizdə görkəmli kaskadyor-aktyorlardan biri olan Əli Məmmədov Qırğızıstanda fəaliyyət göstərən Kaskadyorlar Assosiasiyasında təlimlərdən qayıtdıqdan sonra "Azərbaycanfilm"də tryukların quruluşçusu və kaskadyor kimi çalışmağa başlayıb. Əli Məmmədov Azərbaycan filmləri ilə yanaşı, "Silah", "Dənizçi", "Jurnalist", "Tələbə", "Qraf Krestofski", "Dronqo", "Mələykələr" kimi Amerika, Rusiya, İran, Tacikistan və Fransa filmlərində, həmçinin bir çox musiqi kliplərində, reklamlarda tryuk quruluşçusu və ifaçısı olub.

30-dan artıq filmdə çəkilən Əli Məmmədov Qırğızıstanda yüksək səviyyədə təlimlər keçərək peşəkar kaskadyor lisenziyası alıb. Kaskadyorluq sənətinin mahiyyətindən danışan sənətkar ilk dəfə çəkildiyi filmi xatırlayır: "Bu, ərəb rejissorunun diplom işi olan filmim idi. Orada rol aldım. Əbdül Mahmudovun dəvəti ilə "Axırıncı körpü"də çəkildikdən sonra yavaş-yavaş filmlərə çəkildim. Bir sıra yerli və xarici filmlərə çəkilmişəm: "Fəryad", "Şahid qız", "Ürəyin yaddaşı", "Girişmə, öldürər!", amerikalılarla birgə çəkilmiş "Dağıdılmış körpü" və s".

"Dağıdılmış körpü"də Hollivud ulduzunu, yerli filmlərdə isə Fəxrəddin Manafovla Həsən Məmmədovu əvəz edib. Bir çox filmlərin sözün əsl mənasında qəhrəmanı kimi yadda qalan Əli Məmmədov elə tryuklar bacarır ki, onları ancaq Hollivudda çəkirlər. Məsələn, avtomobilin 5-6 metr hündürlükdə fırlanıb yerə düşüb dağılması heç də "zarafat" deyil: "Heç bir tryuk asan deyil, hamısının öz çətinliyi var. Əvvəlcədən düşünürəm, fikirləşirəm, təhlükəsizliyi təmin edirəm. Ancaq bununla bərabər yenə də görürəm ki, çox çətindir. Müharibədə döyüşən zaman hansı hissləri keçirirsənsə, bu da ona bənzəyir. Hündürlükdən tullanmaq, yanmaq, maşını aşırmaq... atla olan tryuklar lap çətindir. Bir şey də var ki, bu çətinliyi keçməyi bacarmaq lazımdır. Birinci dəfə çətin olan ikinci dəfədə asandır. Əvvəlcədən planlaşdırıram, təhlükəsizliyi təmin edirəm, qalır tryukun uğurlu alınması. Bu da çəkilişdə bəlli olur".

Uşaqlıq illərində ilk dəfə Ənvər Əblucun quruluş verdiyi "Ağatlı oğlan" filminin sınağında iştirak edən, bu gün isə Kaskadyorlar Assosiasiyasının üzvü kimi tanınan Əhməd Cəfərov sınaqda seçilməsə də, ruhdan düşməyib. Kino sənətinə onda böyük maraq yaranıb. Hərbi xidmətdən sonra sənətə gələn aktyor-kaskadyor kimi fəaliyyətə başlayan Əhməd Cəfərov sənət-peşə müəllimi Əli Məmmədovla birgə filmlərdə çalışır.

Əhməd Cəfərov deyir ki, kaskadyor olmaq üçün təkcə idmançı olmaq kifayət deyil, həm də bu sənəti ürəkdən sevməlisən: "Filmlər olanda işləyirik, olmayanda isə məşqlərimizi edirik. Hazırda Azərbaycan Respublikası Kaskadyorlar Assosiasiyasında 7 nəfər peşəkar kaskadyor fəaliyyət göstərir. Kömək lazım olanda kaskadyorluğa maraq göstərən gəncləri dəvət edirik. Azərbaycanda, Türkiyədə, İranda, Rusiyada, eləcə də digər ölkələrdə filmlərə çəkilirik. Ölkəmizdə həm dövlət, həm də özəl prodakşnlar tərəfindən çəkilən filmlərə, eləcə də reklamlara dəvət alırıq...

Onu da qeyd edək ki, ilk milli kaskadyorluq sənətinin özül daşını "Qorxma, mən səninləyəm" filminə çəkilməklə qoyan Nizami Musayev olub ki, 1988-ci ildə "Azərbaycanfilm"ə gələn Əli Məmmədovla bu sahədə "can qoyub", "qan-tər" axıdıblar: "Bizim professional kaskadyor olmağımızla bağlı sertifikatımız var. Rusiyadan burada film çəkməyə gələnlər birinci olaraq bizi axtarırlar. Biz Moskvada kurs, təlim keçdiyimiz üçün onlar bizimlə işləməyə üstünlük verirlər. Bizim kaskadyorlar çoxlu sayda filmə çəkiliblər".

Əhməd Cəfərov 10 yaşından kinostudiyada böyüyüb. Lakin onun sırf kaskadyor-aktyor kimi filmlərdə çəkilməsi 2000-ci ildən başlanıb. On səkkiz il ərzində çox sayda filmlərdə işləyib. Deyir ki, Azərbaycan Respublikası Kaskadyorlar Assosiasiyası 2006-cı ildə yaradılıb. Əli Məmmədov tərəfindən yaradılan assosiasiyanın Bəxtiyar Abbasov, Vüqar Əliyev, Etibar Məmmədov kimi üzvləri var ki, hər biri tamaşaçı sevgisi qazanıb. Onlar bu sahə ilə peşəkar məşğul olanlardır. Aktyor-kaskadyorlarımız eyni zamanda peşəkar idmançılardır: hər birinin müxtəlif dərəcələri var.

Kaskadyorların hər filmdə verdikləri "imtahan"dan üzüağ çıxmaları məşqlərindən çox asılıdır. Əsas problem də elə bina ilə bağlı üzləşdikləri çətinlikdir. "Azərbaycanfilm"in binasında ayrıca otaqları var, lakin məşq üçün yararlı olmadığını deyir Əhməd Cəfərov. İstifadə etdikləri əşyalar və avadanlıqların orada yerləşdirilməsi mümkün deyil: "Kaskadyorların məşq etməsi üçün mütləq baza olmalıdır. Biz orada həm məşq etməliyik, həm də əşyalarımızı, çəkiliş üçün lazım olan avadanlıqlarımızı yığmalıyıq. Bu sahəyə gənc nəsil gəlməlidir, onlar bizim yolumuzu davam etdirməlidirlər. Bu gün peşəkar kaskadyor olmaq istəyən gənclərimiz çoxdur, lakin bizim yerləşdiyimiz məkan ona imkan vermir ki, onları ora toplayıb kurslar, təlimlər keçək. Bizdə milli kaskadyorluq məktəbi geniş səviyyədə inkişaf etməlidir. Yaşımız ötür, bizi əvəz edən yeni nəsil gəlməlidir ki, onlar bu sənətin incəliklərini öyrənə bilsinlər. İstedadlı gənclərimiz var, lakin onları bu halda filmlərə çəkmək olmaz. "Maşın aşırmaq", "hündürlükdən tullanmaq", "yanmaq" və s. ilə bağlı təlimlər keçməlidirlər ki, onlara iş etibar edilsin".

Əhməd Cəfərov bir çox məşhurların dublyoru olduğunu bildirir: "İran, Türkiyə, Rusiya aktyorlarının dublyoru olmuşam. Azərbaycanda da çox aktyora dublyorluq etmişəm. Onların arasında qadınlar da var, kişilər də. Qadın və kişi aktyorların kaskadyor kimi dublyoru biz oluruq. Bizdə hazırda qadın kaskadyor yoxdur. Əvvəl iki qızımız vardı. Birinin adı İlahə, o birininki isə Səadət idi. Sonra onlar ailə həyatı qurub bu sahədən uzaqlaşdılar. Bu gün qadın kaskadyorlar da yetişməlidir. Onu da deyim ki, bu sahədə marağı olan qızlarımız var".

Qeyd edək ki, ötən əsrin doxsanıncı illərinin əvvəllərində Əli Məmmədovun təşəbbüsü ilə Şuşada Cıdır düzündə ilk dəfə kaskadyorlar festivalı keçirilib. Sonda kaskadyorlarımızın arzusunu dilə gətirərək deyək ki, inşallah, işğal olunmuş torpaqlarımızı, o cümlədən Şuşamızı geri alaraq orada yeni festivallar keçirək...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# "Azercell"in Barama Mərkəzi "Gələcəyi qur" layihəsində məktəblilərə dəstək oldu



"Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi ölkəmizdə təhsilin inkişafına və gənclərin uğurlu karyera qurmasına dəstək məqsədilə həyata keçirilən layihə və tədbirlərdə fəal iştirakını davam etdirir. Mərkəz bu dəfə "Chevron Xəzər" LTD-nin maliyyə dəstəyi və "Junior Achievement Azerbaijan"ın təşkilatçılığı ilə həyata keçirilən "Gələcəyi qur: məktəblərdə karyeranın planlaşdırılması və inkişafı" layihəsində tərəfdaş kimi çıxış edir. Yuxarı sinif şagirdlərini müasir əmək bazarının tələbləri, müxtəlif peşələr və iş dünyası ilə tanış edərək onlara öz bacarıq və maraqlarına uyğun ixtisas seçimində və gələcək karyeralarını rasional şəkildə müəyyənləşdirməkdə yol göstərmək məqsədi daşıyan layihə çərçivəsində məktəblilər Barama Mərkəzində qonaq olublar. 30 şagirdin iştirakı ilə keçirilən görüşdə məktəblilər Barama İnnovasiya Sahibkarlıq Mərkəzinin fəaliyyəti ilə yaxından tanış olmaq imkanı əldə ediblər. Mərkəzin əməkdaşları indiyə qədər startap və gənclərlə həyata keçirilən layihələr haqqında məlumat veriblər. Eyni zamanda uğurlu karyeranın mümkünlüyündən, yaranmaqda olan yeni ixtisaslar, peşə təliminin vacibliyi, iş etikası və iş yerindəki dəyərlər haqqında, müasir əmək bazarında innovasiyaların rolundan danışıblar. Görüşün sonunda mərkəz əməkdaşları tərəfindən məktəbliləri maraqlandıran suallar da cavablandırılıb. Qeyd edək ki, 2015-ci ildən başlayaraq Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilən bu layihə bugünə kimi Bakıda yerləşən ümumtəhsil müəssisələrindən yüzlərlə şagirdi "Məqsədli Karyera" təlim proqramına cəlb edib.

***"Azərbaycan"***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Səudiyyə Ərəbistanı ABŞ-a xərac verməkdən imtina etdi



Səudiyyə Ərəbistanının vəliəhdi Məhəmməd bin Salman Al Səud ABŞ Prezidenti Donald Trampın krallığın Amerikanın dəstəyindən asılı olması barədə bəyanatları ilə razılaşmamışdır. O, "Bloomberg" agentliyinə müsahibəsində "Səudiyyə Ərəbistanı ABŞ-ın köməyi olmadan iki həftədən çox duruş gətirə bilməz" fikrinin səhv olduğunu bildirmişdir: "Prezident Obama səkkiz il təkcə Səudiyyə Ərəbistanının deyil, bütün Yaxın Şərqin bir çox maraqlarına qarşı işləmişdir. Lakin ABŞ bizə qarşı işləsə də, biz öz maraqlarımızı qoruya bildik" deyə Məhəmməd Al Səud vurğulamışdır. Vəliəhd həmçinin Trampın krallığın təhlükəsizliyinin təmin olunması ilə bağlı kraldan pul tələb etməsini tənqid etmişdir: "Biz təhlükəsizliyə görə pul ödəməyəcəyik. Hesab edirik ki, ABŞ-dan gətirilən bütün silahların pulu ödənilib. Silah bizə havayı verilməyib. Səudiyyə Ərəbistanı ilə Amerika Birləşmiş Ştatları arasında münasibətlərin başladığı vaxtdan bəri biz hər şeyin haqqını ödəmişik".

Bundan əvvəl ABŞ Prezidenti Donald Tramp Səudiyyə Ərəbistanı Kralı Salman bin Əbdüləziz Al Səudu müdafiə xərclərini artırmağa çağırmışdı. O həmçinin bildirmişdi ki, Səudiyyə Ərəbistanı ABŞ-ın dəstəyi olmadan heç iki həftə tab gətirə bilməz.

## Yunker: "Balkanda yeni müharibə təhlükəsi var"



Qərbi Balkan dövlətlərinin Avropa İttifaqına (Aİ) üzv olması ilə bağlı real perspektivlər regionun sabitliyinin əsas şərtidir. Bu barədə Avropa Komissiyasının sədri Jan Klod Yunker bildirmişdir.

Yunker hesab edir ki, Aİ üzvləri Bosniya və Herseqovina, Albaniya, Serbiya, Makedoniya, Monteneqro və Kosovonun inteqrasiyası perspektivlərinə ciddi yanaşmasa, belə münasibət yeni müharibə doğura bilər. Onun fikrincə, Balkan ölkələrini Aİ-yə üzvlükdə "uzun" yol gözləyir. Yunker Aİ-ni Balkan dövlətləri ilə "məşğul olmağa" və "lazım olan məqamda kömək etməyə" çağırmışdır. Avropa Komissiyasının sədri vurğulamışdır ki, Aİ-nin potensial üzvləri quruma daxil olanadək bir-birləri ilə bütün sərhəd münaqişələrini həll etməlidirlər.

## Ukrayna Rusiya ilə ikili vətəndaşlığın leqallaşdırılmasını istisna edir



Ukraynanın xarici işlər naziri Pavel Klimkin Rusiya ilə ikili vətəndaşlığın leqallaşdırılmasını istisna etmişdir. Nazirin dediyinə görə, Rusiya vətəndaşlığının alınması ilə bağlı bütün hallar müvafiq olaraq Ukraynanın xüsusi xidmət orqanları tərəfindən təhqiq edilməlidir.

Klimkinin fikrincə, analoji leqallaşdırılma imkanı digər dövlətlərlə müzakirə oluna bilər. Onun dediyinə görə, ölkədən köçmüş ukraynalılar "özlərinin Ukrayna mentallığını qorumuşlar". Nazir "Vətəndaşlıq haqqında" yeni qanunun qəbul olunmasının zəruriliyini qeyd etmişdir.

Xatırladaq ki, oktyabrın 4-də rəsmi Kiyev Macarıstanın Lvovdakı konsulunu persona non-qrata elan etmişdir. Buna səbəb Ukrayna vətəndaşlarına Macarıstan pasportlarının verilməsi və konsulun bu faktı Ukrayna hökumətindən gizlətməsi tələbi olmuşdur. Bu addıma cavab olaraq Budapeşt Ukrayna səfirliyinin birinci katibini ölkədən çıxarmışdır.

## Siciliyada zəlzələ



Siciliyanın Kataniya əyalətində Rixter cədvəli ilə 4,8 bal gücündə zəlzələ baş vermişdir. Bu barədə İtaliyanın Milli Geofizika və Vulkanologiya İnstitutu məlumat vermişdir.

Zəlzələnin episentri Santa-Mariya-di-Likodiya şəhərinin yaxınlığında doqquz kilometr dərinlikdə qeydə alınmışdır. Yeraltı təkanları Siciliyanın bir çox iri şəhərlərinin sakinləri hiss etmişlər. Birinci yeraltı təkandan sonra alimlər daha 20-yə yaxın afterşok qeydə almışlar. Bu zəlzələnin "Etna" vulkanının fəallaşması ilə əlaqəli olduğu istisna edilmir.

Yerli yanğınsöndürmə xidmətindən verilən məlumata görə, Santa-Mariya-di-Likodiya, habelə qonşu Byankavilla və Adrano kəndlərində binalar qismən dağılmış, bir neçə adam yüngül xəsarətlə xəstəxanaya çatdırılmışdır.

# Binə qəsəbəsində yük qatarının avtobusla toqquşması ilə əlaqədar iki nəfər həbs olunub

Oktyabrın 1-də saat 14:30 radələrində paytaxtın Xəzər rayonunun Binə qəsəbəsində qorunan dəmir yolu keçidində yük qatarı ilə Şirəliyev Əlixan Əlibala oğlunun 160 nömrəli marşrut üzrə idarə etdiyi "Ayşən LTD" MMC-yə məxsus "Daewoo" markalı 10-TG-106 dövlət qeydiyyat nişanlı sərnişin avtobusunun toqquşması nəticəsində 2006-cı il təvəllüdlü Dadaşzadə Yusif Tahir oğlu və 1962-ci il təvəllüdlü Əliyev Şakir Pənah oğlu vəfat edib, 40 sərnişin isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Bakı Şəhər Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilir ki, fakta görə Dəmir Yolu Nəqliyyatında Polis İdarəsinin istintaq bölməsində Cinayət Məcəlləsinin 263.3-cü (Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Hadisə yerinə baxış keçirilib, müvafiq ekspertizalar, o cümlədən məhkəmə-tibbi, məhkəmə-narkoloji, məhkəmə yol-nəqliyyat hadisələri ekspertizaları təyin edilib, şahidlərin ifadələri alınıb və digər zəruri istintaq hərəkətləri yerinə yetirilib.

Ə.Şirəliyev iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilərək ona Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

İstintaqla həmçinin qəzaya səbəb olan sürücünün hadisə baş verən gün tibbi müayinədən keçirilmədən reysə buraxılması müəyyənləşdirildiyindən "Ayşən LTD" MMC-də dispetçer işləyən Fərəcov Mübariz Kərim oğlu Cinayət Məcəlləsinin 265-1.3-cü (Ümumi istifadədə olan nəqliyyat vasitəsinin istismara verilməsi qaydalarının pozulması, ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək ona Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları Taliyə Quliyevaya atası

**SABİR QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Həsən Şirinova bacısı

**QƏLƏMZƏR ŞİRİNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8406
Sifariş 2878